# Sehirli nağıllar



Kitabın içindəki nağıllar:

İşıldaböcəyin sirri
Ən varlı məmləkət
Tərs padşahla üç bacının nağılı
Ən qiymətli nemət
Körpə uşaqla xallı keçinin nağılı
Ayı və hiyləgər tülkünün nağılı

**İşıldaböcəyin sirri**
**(Nağıl)**

Biri varmış, biri yoxmuş, qədim zamanlarda bir şirəçi Qulam varmış. Şirəçi Qulam hər gün gedərmiş kəndin qurtaracağından şirə gətirər, onu satıb dolanarmış. Kənd camaatı da şirəni ondan alıb, evlərinin divarlarına, yerinə sürtərlərmiş. Şirə palçığa oxşayırdı. Ancaq palçıq deyildi. Onu divara, ya yerə sürtən kimi quruyar, həm təmiz olardı, həm də yaraşıqlı görünərdi.

Amma şirəçi Qulamın böyük dərdi var idi. Onun uşağı olmurdu. Arvadını nə qədər təbibə göstərmişdi, dərdinə heç bir çarə tapılmamışdı.



Günlərin bir günü şirəçi Qulam kəndin qurtaracağında şirə torpağı yığmaq üçün yer qazırmış. Bu vaxt bel yumşaq bir şeyə toxunur. Beli bir tərəfə atıb həmin yeri əli ilə qazmağa başlayır. Qazır, qazır bir də görür ki, torpağın altında dəriyə oxşar bir şey var. Əvvəlcə istəmir dəysin ona. Fikirləşir ki, bu yəqin hansısa naxoş bir heyvandır, basdırıblar ki, o biri heyvanlara naxoşluq keçməsin. Beli götürür əlinə istəyir torpağı təzədən töksün dərinin üstünə. Görür dərinin arasında nəsə tərpənir. Kişi qorxusundan əlindəki beli atır, götürülür evə.

Ərini rəngi qaçmış tez qayıdan görən arvadı onu sorğu-suala tutur:

-Ay kişi, nə oldu sənə, getməyinlə qayıtmağın bir oldu? Bəlkə canavara-zada rast oldun? Rəngin niyə ölü rənginə dönüb?

-Heeçç sooruşşma, aay aarvvad! Ttorrpaǧǧı qaazandaa əcaib bbir şşey ggöörmüüşəm. Ttez eelə, məənə bbir qqurrtuum ssu vverr, - deyə, şirəçi Qulam kəkələyə-kəkələyə danışmağa başladı.

Arvadı ərinin bu halından qorxdu. Ona tez bir qurtum su içirtdi. Sonra isə bir əsgi parçası yandırıb onun oynaqlarına vurub, qorxusunu aldı. Kişi bir az özünə gəldi, dili açıldı:

-Arvad, başıma oyun gəlib, yeri qazırdım ki, şirə torpağı çıxardım, bir də gördüm bel yumşaq bir şeyə dəydi. Beli bir tərəfə atıb başladım əlimlə qazmağa.
Arvadı dözə bilmədi:
-Nə gördün, a kişi?
Qulam kişi sudan bir qurtum da içib, gerisini danışdı:
-Kiri, danışım. Torpağın altında qoyun dərisinə oxşar bir şey gördüm, içərisində də nə var idisə, tərpəşirdi. Qorxudan apardığım qabları da atıb qaçdım.
Arvad da qorxdu:
-Bəlkə cin, ya şeytana rast olmusan? Allahu-əkbər, biz kimə pislik eləmişik ki, qabağımıza belə şeylər çıxsın, a kişi, gəl gedək molla Mahmudun yanına, görək gördüyün nə imiş?
Qulam kişi hirsini arvadının üstünə tökdü:
-Sən də bir şey olmamış molla Mahmudu axtarırsan, avam qızı, avam!
Beləcənə ər-arvad axşama qədər deyişdilər, amma qorxularından gedib qablarını gətirmədilər. Gecə isə hər ikisi yuxuya gedən kimi qəribə bir yuxu görüb, yatdıqları yerdən dik qalxdılar. Yuxularını bir-birlərinə danışdılar. Məətəl qaldılar. Yuxu eyni yuxu idi. Yuxuda görmüşdülər ki, dərinin içərisində körpə bir qızcığaz var. Onlara yalvarır ki, üstümün torpağını açmısınız, soyuqdan donuram, gəlin üstümü örtün.
Ər-arvad yuxularının eyni olduğunu eşidəndə lap qorxdular. Qorxularını qovmaq üçün durub hərəsi bir qurtum su içdi. Sonra təzədən yatdılar. Elə təzəcə gözlərini yummuşdular ki, bu dəfə yuxuda gördülər həmin qız titrədir və onlardan küsüb, üzünü yana çevirib, daha heç nə danışmır. Bu yuxunu görən kimi arvad oyanıb ərinə dedi:
-Kişi burda sirr var. Sənin qazdığın yerə gedib sirri açmalıyıq. Bəlkə elə doğrudan da bir allah bəndəsinə bizim köməyimiz lazımdır?
Qulam kişi arvadının cəsarətini görüb qorxmağı yadından çıxartdı:
-Düz deyirsən arvad, indicənə həmin yerə getməliyik.
Ər-arvad geyinib qaranlıqda qazılan yerə getdilər. Uzaqdan elə bil orada məşəl yanırdı. Yaxınlaşanda gördülər ki, qazılan yerə çoxlu işıldaböcəklər yığılıb. İşıldaböcəklər o qədər idilər ki, elə bil məşəl yanırdı. Böcəkləri qovdular. Qazılmış yerdə motala oxşar bir dəri vardı. Dərinin içərisində nə isə tərpənirdi. Ondan da uşaq ağlamağının səsi gəlirdi.
Qulam kişi dərini çıxartdı. Cibindən bıçağını da çıxardıb onu cırdı. Ər-arvad gözlərinə inanmadılar. Dərinin içərisindən iki-üç yaşlı göyçək bir qız uşağı çıxdı. Qızcığaz soyuqdan titrəyirdi.
Arvad ondan soruşdu:
-Ay uşaq, səni kim bura basdırıb? Anan kimdir? Atan hardadır?
Uşaqdan səs çıxmadı. Kişi ağlamsına-ağlamsına soruşdu:
-Hansı insafsız səni torpağın altına basdırıb, kim sənin körpə canına qıyıb?
Qız danışmırdı. Soyuqdan titrəyirdi. Arvad belindən şalını açıb uşağı bükdü.
Uşağı komalarına apardılar. Yolda daha onlara məşəl lazım olmadı. Çünki qızın gözləri elə parıldayırdı ki, hər yana nur verirdi.

Evlərinə çatan kimi onu sobanın yanına qoydular. Çay verdilər. İsinəndən sonra qızın elə bil dili açıldı. Üzünü Qulam kişiyə tutub böyük qız səsi ilə dedi:
-Mənim üstümün torpağını açandan sonra niyə məni atıb getdin? Mən az qala soyuqdan öləcəkdim.
Qulam kişi qızın danışmağına sevindi:
-Danışa bilirdin, bəs bayaqdan səni danışdırırdıq, niyə dinmirdin?
-Mən səndən küsmüşdüm, məni soyuqda qoymuşdun. İndi isindim, səninlə barışdım, - qızcığaz bunu deyib əvvəlcə kişinin boynuna sarıldı, - sən bu gündən mənim dədəm olarsan,- sonra arvadın boynuna sarıldı, - sən də bu gündən mənim nənəm olarsan, - dedi və onların üz-gözündən öpdü.



Qulam kişinin və arvadının sevincləri yerə-göyə sığmadı. Onlar neçə illərdi övlad həsrətindəydilər. İndi də Allah onlara övlad vermişdi.
Qulam kişi qızdan soruşanda kim səni torpağa basdırıb, qız bircə onu dedi ki, mənə süd verən arvad. Onun daha heç nə yadında qalmamışdı.
Ər-arvad danışdılar ki, hələlik bu sirri bir kəsə deməsinlər. Qızın da gözləri qaranlıqda par-par yandığına görə adını İşıldaböcək qoydular.
Gecəni yatdılar. Sübh tezdən oyananda gördülər ki, İşıldaböcək elə bil bir yaş böyüyüb, özü də gözəlləşib. Bu minvalla on iki gün keçdi. İşıldaböcək hər gün bir yaş böyüdü və bir az gözəlləşdi. Elə ki, on dörd, on beş yaşlı qız oldu, böyüməyini dayandırdı.
Qulam kişi bundan çox sevindi:
-Ay arvad, yaxşı ki, qızımız böyüməyini dayandırdı. Yoxsa qorxurdum ki, hər gün böyüyə, sonra da qocala.
-Düz deyirsən, a kişi, mən də bundan çox nigaran idim, - dedi arvadı.
İşıldaböcək həm çox gözəl, həm də çox zirək idi. Onun başının üstündə bütün günü işıldaböcəklər fırlanardılar. Bu nə sirr idi, heç kəs başa düşmürdü. Heç qızın özü də bilmirdi. İşıldaböcəklər heç vaxt onun başının üstündən getmirdilər. Nə gündüz, nə də gecə. Gecələr də onun yan-yörəsini işıqlandırırdılar.
Gözəl İşıldaböcək hər işi özü görər, nənəsinə, dədəsinə əziyyət verməzdi. O hətta bir gün dədəsinin şirə gətirdiyi yerə getdi, orada şirə torpağına su qatıb

şirə hazırladı. Sonra evlərinə qədər bir arx düzəltdi. Düzəltdiyi şirə arxla gedib həyətlərində qazdığı quyuya töküldü.
İşıldaböcəklər isə qıza kömək etmək istədilər. Onlar şirə quyusunun üstündə dövrə vurub uçaraq qanad çaldılar. Bu vaxt onların qanadları arasından şirəyə qızılı zərlər töküldü. Şirə qızılı rəngə çaldı.
Bundan sonra şirə almağa gələnlərin sayı çoxaldı. Hətta uzaq məmləkətlərdən zərli şirə alıb, şah saraylarını bəzəməyə aparardılar.
Az vaxtda şirəçi Qulam varlı bir adam oldu. Onun qızının işgüzarlığı, gözəlliyi sorağı isə hər yana yayıldı. Elçilərin sayı günü-gündən artdı. İşıldaböcək isə heç kəsə ərə getmək istəmirdi.
Günlərin bir günü məmləkətdə zalımlığı ilə ad qazanmış dəli Şavəddinin kiçik oğlu Hümmət də qıza elçi göndərdi. Amma Hümmət qızı doğrudan da sevirdi. Bu sevgi belə başlanmışdı.
Bir dəfə Hümmət yatıb yuxuda görmüşdü ki, gözəl bir qız onların divarlarına zərli şirə sürtür. Şirələdikcə də divarlar qızıla dönür. Qızın başının üstündə sehrli böcəklər uçur. Böcəklərin qanadlarının üstündə şam yanır. Böcəklər uça-uça mahnı oxuyurlar:

Vaxt gələr, tilsim qırılar,
Ananın gözü açılar,
Şavəddinin oğlanları
Yenə də göyçək olarlar!

Hümmətgil yeddi qardaş idilər, yeddisi də çirkin. Hümmət ayılan kimi yuxusunu təzədən yadına salıb sevindi. Tez qaçdı şirəçi Qulamın evinə. O, eşitmişdi ki, zərli şirə yalnız onda olur. Həm də şirəçinin dünya gözəli bir qızı var, o da bütün elçilərə rədd cavabı verir.
Hümmət şirəçi Qulamdan şirə almağı bəhanə edib qızı görmək istəyir. Şirəni alır, aparmaq istəyəndə başlayır yalandan öskürməyə. İçməyə su istəyir. Qulam kişi evdəkiləri çağırır:



-Ay uşaq, ordan içməli su gətirin qonağa!

-Gətirirəm dədə, - evdən İşıldaböcəyin səsi gəlir. O, əlində su gətirəndə Hümmət çaşıb qalır. Həm qızın gözəlliyinə, həm də eynən yuxuda gördüyü qız olduğuna.
Su boğazından keçmir. Əlləri əsir, su qabı yerə düşür, çilik-çilik olur. Bir könüldən min könülə qıza aşiq olur.
İşıldaböcək də oğlanı görüb özünü itirir. Boyunun balaca olmağına fikir vermir. Ondan çox xoşu gəlir.
Hümmət evlərinə gedir. Şirəni evlərinin divarlarına çəkir. Divarlar elə bil alışıb yanır. Hər tərəfə işıq saçır. Ondan sonra hər gün Hümmət İşıldaböcəyi görmək bəhanəsilə Qulamkişigilə gəlib şirə alır, amma daha heç vaxt qızı görə bilmir. Oğlan qızın sevgisindən günü-gündən divanəyə dönür.
İşıldaböcək də oğlana bir könüldən min könülə aşiq olur. Amma oğlanın gözünə görünmür. O, ürəyində and içmişdi ki, öz başına gələnləri bilməyincə, öz sirrini açmayınca heç kəsə ərə getməyəcək.
Hümmət qızın həsrətinə dözə bilmir. Ona elçi göndərir.
Dəli Şavəddinin oğlunun İşıldaböcəyə elçi düşməsini eşitcək Qulam kişi çox bikef oldu və qorxuya düşdü. Bikef oldu ona görə ki, mahalda ən eybəcər oğlanlar dəli Şavəddinin oğlanları idi. Onlardan böyüyü elə zırpı və eybəcər idi ki, görən qorxurdu. Ondan kiçiyi çox pis axsayırdı. Bir başqa oğlanlarının üzü çopur-çopur idi. Başqa birisinin danışanda ağzından tüpürcək tökülürdü. Digərinin başı keçəldi, bir başqasının dili lal idi. Lap kiçikləri Hümmətin isə boyu bapbalaca idi. Elə bil cavan oğlan yox, balaca bir uşaqdı.



Amma Qulam kişi onu da bilirdi ki, bu gələnlər başqa elçilərin tayı deyil, onlara rədd cavabı vermək olmaz. Yoxsa dəli Şavəddin eşitsə ki, onun elçiləri boş qayıdıb, onun külfətinin başına müsibət açar.
Qulam kişinin rəngi qorxudan ağardı. Dili söz tutar-tutmaz gələnləri dilə tutdu:
-Mənim qızım Şavəddin kimi kişinin gəlini olmayacaq, ondan layiqli kimin gəlini olacaq? Amma gün batandan sonra elçi gəlməzlər. Gedin, sübh gələrsiniz, mən də bu işdən külfətimi agah edim.
Elçiləri birtəhər dilə tutub yola salandan sonra Qulam kişi İşıldaböcəyi yanında oturtdu və onu da dilə tutmağa başladı:

-Mənim gözəl qızım, elçilərə cavab verməkdən lap yorulmuşam, indi isə elçi gələnlər səni dəli Şavəddinin oğlu Hümmətə istəyirlər. Həmin oğlan hər gün gəlib bizdən şirə alır. Sən də onu görmüsən. Boyu balaca olsa da deyilənə görə çox yaxşı oğlandır. Dəli Şavəddin də asanlıqla bizdən əl çəkən deyil. Sən də gəl elə bu başdan onun oğluna getməyə razılıq ver.
-Dədə, başıma gələnləri öyrənməyəncə heç kəsə ərə getməyəcəyəm. Mən bilməliyəm ki, körpə vaxtımda məni torpağa diri-diri niyə basdırıblar? Niyə həmişə işıldaböcəklər başımın üstündə fırlanır? Yalnız bu sirr açılandan sonra ərə gedəcəyəm.
Qulam kişi də arvadı da nə qədər qızı yola gətirməyə çalışsalar da, İşıldaböcəyi fikrindən döndərə bilmədilər ki, bilmədilər.
Səhərisi günü kişi naəlac qalıb gələn elçilərə qızının dediklərini çatdırdı.
Elçilər əvvəlcə Qulam kişinin sözlərinə inanmadılar. Qızı çağırıb dədəsindən eşitdiklərini qızın dilindən eşitmək istədilər. Elə bildilər ki, kişi onları başından rədd eləmək üçün belə deyir.
Elə ki, İşıldaböcəyi öz gözləri ilə gördülər, hər şeyə inandılar. Hamının gözü qarşısında qızın başının üstündə dövrələmə işıq saçan işıldaböcəklər uçurdu. Elçilər daha heç nə demədilər. Sakitcə durub getdilər.
Elçilərin qəmgin qayıtmasını görən dəli Şavəddin də, onun yeddi yeddi oğlanları da bikef oldular. Elçilər hər şeyi olduğu kimi onlara danışdılar. Dəli Şavəddin qılıncını çıxarıb hikkə ilə ayağa qalxdı:
-Deyəsən Qulam kişinin başı bədəninə ağırlıq eləyir ki, mənim kimi kişinin sözünü yerə salır!
Hümmət dədəsini sakitləşdirdi:
-Dədə, mən sirri öyrənərəm, sonra yenə elçi gedərik. Qılınc qaldırmağın yeri deyil.
Dədəsi Hümmətin üstünə qışqırdı:
-Sən məni yaxşı tanımırsan, gör mən Qulam kişinin başına nə oyun açacağam!
Söhbəti o biri evdən eşidən dəli Şavəddinin kor arvadı əllərini divara sürtə-sürtə özünü yetirdi:
-Dayanın, durun, qılıncı yerə qoyun! İşıldaböcəyin sirrini mən bilirəm. Qoyun sizə danışım. Oğul, Hümmət, o qızdan sənə gəlin olmaz, olmaz, olmaz!
Bunları deyib, arvad bayıldı. Nə qədər elədilər özünə gəlmədi ki, gəlmədi. Neçə gün huşsuz qaldı. Nə qədər loğman gəldi, dərdinə çarə edə bilmədi. O vaxta qədər qədər huşsuz qaldı ki...
İndi gəlin görək, kor arvad niyə huşunu itirdi...
Dəli Şavəddin cavan vaxtı bulaq başında bir gözəl qız görür. Qızın gözəlliyi onun dəli başını bir az da çaşdırır. Onu özünə arvad eləmək qərarına gəlir. Elə ordacana da qıza istəyini bildirir.
Bu dəyirmançı Tələtin qızı Almaz idi. Təzəcə on dörd yaşı olmuşdu. Özü də çox gözəl idi. Dəli Şavəddini yaxşı tanıyırdı. Bilirdi ki, bu dəli nə istəyir, onu da eləyir. Ona görə də qızı qorxudan titrətmə tutdu. Amma qorxsa da ürəyindəkini bildirdi:
-Ölsəm də sənə ərə getmərəm. Mənə elçi-zad göndərib eləmə!

Dəli Şavəddinə qızın sözləri çox acıq gəldi. Elə oradacana Almazı atına mindirib çığırda-çığırda evinə gətirdi. Biçarə qız nə qədər qışqırdısa da, harayına çatan olmadı.
Almaz hamilə olduğunu bilənə qədər ağladı, sızıldadı. Sonra naəlac səsini kəsdi. Arvadının hamilə olduğunu bilən dəli Şavəddin dedi:
-Bax, sənə indidən deyirəm, qızın olsa, öz əlimlə qılıncdan keçirəcəyəm.
Almaz ərinin xasiyyətinə bələd idi. Ona görə də gecə-gündüz Allaha yalvarırdı ki, ərinin ürəyinə rəhm salsın, fikrindən dönsün. Özü də hər gün evlərinin yanındakı ocağa gedib, dua edirdi ki, qızı olmasın.
Belə-belə, doqquz ay, doqquz gün, doqquz gecə keçdi. Almazın sancısı tutdu. Uşağı oldu, bədbəxtlikdən də qız uşağı. Özü göbəyini kəsdi. Bələdi. Qız elə gözəl idi ki, elə bil nur saçırdı. Almaz bir xeyli ağlaya-ağlaya balasına tamaşa elədi. Onu doyunca əmizdirəndən sonra yuxu gətirən otun dəmlənmişini verdi balasına. Körpə bərk yuxuya getdi. Almaz onu götürüb qoydu qoyun dərisinin içərisinə. Evlərindən uzaq bir yerə apardı. Dərənin bir yerində çala qazdı. Balasını öpüb çalaya qoydu.



Bu vaxt çalanın yanında bir işıldaböcək var idi. İşıldaböcək həm işıldayırdı, həm də ciy-ciy ciyildəyirdi. Almaz fikirləşdi ki, bu böcəyi körpənin yanına qoysa, heç olmasa binəva balası yuxudan oyananda onun işığını görər, qaranlıqdan qorxmaz, səsini eşidər, tənhalıqda qalmaz. Götürüb işıldaböcəyi balasının yanına qoydu. İşıldaböcək çalanı işıqlandırdı. Almaz gözlərinin yaşını tökə-tökə çalanın üstünə torpaq tökdü.
Dəli Şavəddin səhər yuxudan ayılıb gördü ki, arvadı evdə yoxdur. Hirsindən bağırmaq istəyirdi ki, darvazanın ağzında arvadını gördü:
-Hardan gəlirsən, köpək qızı, məndən izn almamış hara getmisən?
-Qızım oldu deyən, mən də onu özüm öldürüb aparıb basdırdım, - Almaz qorxa-qorxa dedi.
Gözləri hədəqəsindən çıxmış kişi arvadının saçlarından yapışdı:
-Sənə deməmişdim, mənə qız doğmayasan! Qız olmuşdusa, düz eləmisən. Amma mən sənə inanmıram, sən onu aparıb gizlətmisən. Gərək gedəm özüm görəm ki, onu hara basdırmısan.
Almaz qorxa-qorxa dedi:
-Nə deyirəm, gedib görmək istəyirsən, gedək.

Gəlin qorxa-qorxa ərini balasını basdırdığı yerə apardı. Dəli Şavəddin gedib körpəni gözləri ilə torpağın altında gördü. Arvadına dedi:
-Neçə qız doğsan, gətirib burda basdırarsan! Mənə qız lazım deyil!
Körpə hələ yuxudan oyanmamışdı, şirin-şirin yatırdı.
Almaz yenə də körpənin üstünü torpaqladı. Ər deyinə-deyinə, arvad da gözlərinin yaşını tökə-tökə evə qayıtdılar.
Dəli Şavəddin çay-çörəyini yeyəndən sonra meydana getdi. Almaz ərini yola salıb yenə də balasının yanına qaçdı. Torpağı eşib onu çıxartdı. Yuxudan oyadıb əmizdirdi. Sonra yenə dərinin içərisinə qoydu. Qızcığaz yenə yuxuya getdi. İşıldaböcək də elə şirin səslə oxuyurdu ki, elə bil uşağa layla deyirdi. Almaz ağlaya-ağlaya körpəsini yerinə qoyub üstünü torpaqla örtdü.
Bu minvalla bir il keçdi. Bir ildə Almaz hər gecə əri yatandan sonra xəlvətcə gedib körpəsini əmizdirərdi. İkinci uşağı olmağına az qalanda isə onun südü tamam kəsildi. Bədbəxt ananın ağlamaqdan gözləri də kor oldu.
Elə kor-kor da Almaz yazıq yeddi oğlan doğdu. Amma deyəsən dəli Şavəddinin qız istəyi Tanrını qəzəbləndirmişdi. Yeddi doğulan oğlanların yeddisi də hərəsi bir yerindən şikəst idi. Guya, bircə sonbeşik Hümmət şikəst deyildi. O da böyüyəndən sonra gördülər ki, yaşıdları boy-buxunlu oldular, onun isə boyu balaca qaldı.
Mahalda dalaşanlar biri-birlərinə qarğış eləyəndə deyərdilər ki, səni görüm Şavəddinin oğlanlarının gününə düşəsən.
Almaz kor olmuşdu deyə, oğlanlarının eybəcərliyini görmürdü. Oğlanları analarını çox sevərdilər. Onu iş görməyə qoymazdılar. Bütün işləri özləri eləyərdi. Amma ataları görməyəndə. Ataları görən kimi oğlanlarının üstünə qışqırardı:
-Kişi olun, atanıza oxşayın! Kişi də evdə arvad işi görər? Evin arvadı öz evinin işini görməlidir! Birinizi ev yığışdıran görsəm, əllərinizi qıraram!
Oğlanları atalarının qorxusundan ya gecə o yatandan sonra, ya da evdə olmayanda bütün işləri görərdilər. Analarının başına dolanardılar. Amma kor ananın heç vaxt üzü gülməzdi.
Bu minvalla neçə il keçdi. Zaman o zamana çatdı ki, şirəçi Qulam həmin qızı torpağın altından çıxarıb, övladlığa götürdü. Qız da böyüyən kimi qapısına elçi-elçi dalınca gəldi.
Şirəçi Qulam axırıncı dəfə gələn elçilərə, «qızım yalnız onun sirrini açan oğlana ərə gedəcək», demişdi. Elçilər isə neçə gün idi ki, getmişdilər, onlardan səs-səmir yox idi. Dəli Şavəddinin elçilərindən xəbər çıxmırdı. Qulam kişi çox nigaran qaldı. Yadına bir məsəl düşdü. 00000«Bataqlıq sakit duranda, bil ki, ordan hər zaman timsah çıxa bilər».
Ordan-burdan soraqladı, dəli Şavəddinin evində olanlardan xəbər tutdu. İşıldaböcək də çox nigaran idi. Çünki qız da Hümməti sevirdi.
Qulam kişi eşitdiklərini qızına danışdı. İşıldaböcək barmağını dişlədi. Başa düşdü ki, sirr açılır.
Gecəni gözlədi. Gecə yarı olan kimi dəli Şavəddingilin evlərinə getdi. Hamı yatmışdı. Dəli Şavəddinin xorultusu hər yana yayılmışdı.
İşıldaböcək gəlib bihuş ananın başı üstündə dayandı. Ona süd verən anasını tanıdı. Deməli Hümmət də onun qardaşı imiş. Oturub qara sevdasına zülüm-

zülüm ağladı. Bir xeyli oturub anasına, qardaşlarına baxdı. Gözlərinin yaşı dayanmadı. Anasının üzündən dönə-dönə öpdü. Saçlarını tumarladı. Başının üstündə uçan işıldaböcəklərdən tutub hər gözünün üstünə birini qoydu. Sonra isə yatmış yeddi qardaşın yeddisinin də başını tumarladı. Üzlərindən öpdü. Hərəsinin üstünə bir işıldaböcək qoydu. Sonra isə ağlaya-ağlaya getdi. Onun daha başının üstündə işıldaböcəklər uçmurdu...



Ana yuxuda dəriyə büküb basdırdığı qızını gördü. Qızı yuxuda ona dedi:

-Gözlərini aç ana, sən mənə ağlamaqdan kor olmuşdun, indi gözlərinə qoyduğum işıldaböcək sənin gözlərinə şəfa verəcək. Sən görəcəksən. Aç gözlərini! Məni isə həmin basdırdığın yerdə bu dəfə həmişəlik basdırarsan. Qardaş-bacının qara sevdasının üstünü yalnız qara torpaq örtməlidir.

Bu vaxt ana gözlərini açdı. Onun qışqırtısına hamı oyandı:

-Mən görürəm, mən daha kor deyiləm!

Ananın hər iki əlində gözlərinin üstündən götürdüyü işıldaböcəklər var idi. Oğlanların da hərəsinin üstündə işıldaböcək var idi. Oğlanlar daha əvvəlki kimi eybəcər deyildilər. Onlar çox sevindilər. Həm analarının gözlərinin açılmağına, həm də özlərinin eybəcərlikdən canlarının qurtarmağına.

Amma dəli Şavəddin çox eybəcərləşmişdi. Oğlanlarının bütün eybəcərlikləri ona keçmişdi. Çox qorxunc olmuşdu.

Hümmət işıldaböcəkləri görən kimi çox sevindi. Başa düşdü ki, İşıldaböcəyin sirri açılır. Anasından sirri açmağı xahiş elədi. Ana dedi:

-Oğlum, məni tez həmin qıza çatdır, onun yanında hər şeyi sizə danışaram.

Onlar şirəçi Qulamın həyətinə gəldilər, İşıldaböcəyi soruşdular.

Şirəçi Qulam arvadı ilə həyətdə oturmuşdu. Qızı soruşanlara bikef-bikef dedi:

-Biz də səhər durandan onu axtarırıq. Qız elə bil yoxa çıxıb, tapa bilmirik. Bizə deməmiş heç yana getməzdi.

Bu vaxt Hümmət fikir verib gördü ki, həyətdəki şirə quyusunun üstünə çoxlu işıldaböcəklər yığışıblar. Quyunun üstünə o qədər böcək yığılmışdı ki, elə bil quyuda gün işığı var idi.

Hümmət quyuya yaxınlaşdı. Əlini yelləyib böcəkləri dağıtdı. Nə gördüsə huşunu itirib quyuya yıxıldı. Yaxınlaşanda gördülər ki, İşıldaböcək də quyudadır. Hər ikisini quyudan çıxartdılar.
Hümmət gözlərini açdı, amma İşıldaböcək işıq saçan gözlərini heç vaxt açmadı.
Ana qızının saçlarını oxşaya-oxşaya başına gələnləri oğlanlarına danışdı. Qulam kişi də qızı haradan tapdığını onlara dedi.
Oğlanlar başa düşdülər ki, İşıldaböcək onların bacısı imiş. İşıldaböcəkdən ötrü çox ağladılar. Amma nə xeyri ki...
Ananın istəyi ilə aparıb onu neçə illər qaldığı çalada basdırdılar. Azca gəlmişdilər ki, gördülər qəbrin üstü işıldaböcəklərlə doludur.
Bununla da İşıldaböcəyin sirri açıldı.
Nağılımız burda qurtardı. Göydən üç sehrli işıldaböcək uçub gəldi. Qoy onlardan biri sənin başına qonsun, biri mənim, biri də nağılı eşidənin. Sehrli işıldaböcəklər yolumuzu həmişə işıqlandırsınlar, bizə xoşbəxtlik gətirsinlər.

## Ən varlı məmləkət
## (Nağıl)

Biri var idi, biri yox idi, dünyada Naxçıvan adlı ən varlı bir məmləkət var idi. Bu var dövlət Məhəmməd Cahan Pəhləvanın hökmranlığı zamanındaydı.
Naxçıvanda olan qızıl, gümüş, zinət əşyaları, gümüş sikkələr dünyanın heç bir yerində yox idi. Camaat çox firavan dolanır, bu ruzuya görə göydə Allaha, yerdə isə Cahan Pəhləvana dua edirdilər.



Hökmdarın Zahidə xatun adlı gözəl arvadı və ondan da gözəl Cəlaliyyə adlı qızı var idi. Cahan Pəhləvan onların hər ikisini çox sevər, bütün istəklərini yerinə yetirərdi. Zahidə xatun bütün işlərdə ərinə kömək edərdi. O, bu işlərdən çox xoşlanardı. Bir gün hökmdar bikef oturmuş Zahidə xatundan soruşur:

-Mənim istəkli xanımım, niye kefin yoxdur, de, bəlkə bir istəyin var?

Zahidə xatun bunu gözləyirmiş kimi deyir:

-Böyük hökmdar! Çoxdan bir istəyim var. Qulaq as, deyim. Neçə-neçə məmləkətlər hökmranlığın altındadır. Hər yanda rəiyyətin ədalətindən danışır. Hamının istəyinə qulaq asıb, yerinə yetirirsən. Mənim də istəyim var.

-İstəyini de, mənim gözəl xanımım, hökmən onu yerinə yetirəcəyəm, - şah deyir.

Zahidə xatun ərinin əlindən öpüb arzusunu deyir:

-Mən istəyirəm ki, məni Naxçıvana hakim edəsən!

Şah arvadının bu istəyindən sonra fikrə dalır. Zahidə xatunun hakimiyyət işlərindən yaxşı başı çıxırdı. Amma çox arvadlar kimi sirr saxlaya bilmirdi. Sarayda onun bildiyi sirr səhərisi bütün məmləkətə yayılırdı. Buna görə də şah xeyli fikirləşəndən sonra arvadına deyir:

-Mənim əziz xanımım, gəl sən bu daşı ətəyindən tök, başqa nə istəyin varsa, de, mən yerinə yetirməyə hazıram. Amma hakimlik arvad işi deyil. Bu sənin üçün çox çətin olar. Məmləkətə də ziyan dəyər, bizə də.

Zahidə xatun zülüm-zülüm ağlamağa başlayır. Gözlərindən yaş sel kimi axır.

Cahan Pəhləvan deyir:

-Yaxşı indi ki, tərslik edib, dediyindən dönmürsən, səni hakim təyin edəcəyəm, amma bir şərtlə.

Zahidə xatun sevinir:

-De şərtini, hökmdarım!

Hökmdar şərtini deyir:

-Söz ver ki, heç vaxt məmləkətin, sarayın sirrini bir kəsə deməyəcəksən.

Zahidə xatun ərinin qarşısında baş əyib, and içir:

-Mən sənin canına və taxt-tacına and içirəm ki, heç bir vaxt məmləkətin və sarayın sirrini bir kəsə açmayacağam!

Cahan Pəhləvan bu söhbətdən sonra bütün Naxçıvan əhlini yığıb arvadını Naxçıvana hakim təyin elədi. Xanım əhli-məmləkət qarşısında sidq ürəklə hakimlik edəcəyinə and içdi.
Zahidə xatun həmin gündən Naxçvana hakimlik eləməyə başladı.
Naxçıvana tez-tez yad ölkələrdən qonaqlar gələrdi. Qonaqlar Naxçıvanın gözəl yerlərini gəzərdilər. Zahidə xatun hörmətli qonaqların şərəfinə ziyafətlər verərdi.



Bu gün də belə günlərdən biri idi. Monqol hakiminin qoşun başçısı öz xanımı ilə Naxçıvana qonaq gəlmişdi. Qoşun başçısı şəhərin gözəlliyinə heyran olmuşdu. Onun xanımı isə arvadların boynundakı silsilə qızıllara, barmaqlarındakı bahalı üzüklərə heyran-heyran baxırdı.
Monqol xanımının qızıldan çox xoşu gəldiyini görən Zahidə xatun ona ağır və bahalı silsilə boyunbağı bağışlayır. Qonaq xanım təşəkkür edib deyir:
-Sən mənə nə böyük bəxşiş verirsən? Bu sizin xəzinəyə ziyan olmazmı, xanım?
Zahidə xatun fərəhlə cavab verir:
-Bizim Əlincəqaladakı xəzinəmizdə belə qızıllardan nə qədər istəsən var. Bu bəxşişi əziz qonağımıza verməklə xəzinəmizdə qızıl azalmaz.
Monqol ər-arvadın acgözlükdən gözləri böyüdü.
Zahidə xatun dediyindən razı halda ərinə baxdı. Cahan Pəhləvanın tərs-tərs baxmağından başa düşdü ki, səhv danışıb, məmləkətin, sarayın sirrini yad adama açıb.
Barmağını dişlədi. Amma çox gec idi. Dilində söz qalmayan Zahidə xatun xəzinənin yerini yadelliyə bildirmişdi.
Doğrudan da Naxçıvan məmləkətinin ağzına qədər dolu xəzinəsi Culfada olan Əlincəqalada saxlanılırdı. Bu qala Əlincə çayının düz üstündə olduğundan camaat onun adını Əlincəqala qoymuşdu. Əlincəqala sıldırım qayanın başında yerləşirdi. Cahan Pəhləvan qala yoluna bişmiş kərpicdən pillələr düzəltdirmişdi ki, qalaya qalxmaq asan olsun. Xəzinəni qorumaq üçünsə qala yolunda müdafiə divarları və keşikçi bürcləri, müdafiə səngərləri tikdirmişdi. Qalanın ətrafında altı yüz nəfər süvari qoymuşdu.

Məhəmməd Cahan Pəhləvanın ən yaxınlarından başqa xəzinə sirrini bir kəs bilmirdi. İndi ziyafətdə Məhəmməd Cahan Pəhləvan Zahidə xatunun dediklərini eşidəndə çox qəzəbləndi. O bilirdi ki, xəzinənin yerini bilən yadellilər onların ölkəsinə mütləq hücum edəcəklər.
Qonaqları yola salan kimi hökmdar Zahidə xatunu xəzinənin sirrini açdığına görə Naxçıvan hakimliyindən çıxartdı. Qızı gözəl və ağıllı Cəlaliyyə xatunu Naxçıvana hakim qoydu.
Aradan çox keçmədi ki, monqollar Naxçıvana, oradan da Əlincanqalaya hücum elədilər. Məhəmməd Cahan Pəhləvan monqolların hücum xəbərini eşidəndə çox məyus oldu. Elinin-obasının var-dövlətinin monqollara qismət olacağı xəbəri onu sarsıtdı. Hökmdar naxoşlayıb yatağa düşdü.
Amma monqolların basqını boşa çıxdı. Onlar Əlincəqalada xəzinə əvəzinə boş naxışlı sandıqlardan başqa heç bir şey tapa bilmədilər.
Ağıllı hakim Cəlaliyyə xatun monqolların hücum xəbərini eşidən kimi xəzinəni boşaldıb Naxçıvan camaatına paylamışdı.
Əlincəqaladan heç bir var-dövlət tapa bilməyən acgöz monqollar suyu süzülmüş geri qayıtdılar.
Məhəmməd Cahan Pəhləvan qızını yanına çağırıb ona «afərin», söylədi.
Mən də nağılımı burda bitirmək istəyirəm. Sənə də nəsihət edirəm ki, sirrini yad adama verməyəsən. Sirr saxlamağı bacarasan. Həmişə elə işlər görəsən ki, sənə «sağ ol», desinlər. Əhli-Naxçıvana da Allahdan salamatlıq, var-dövlət diləyirəm.
Var-dövlət dedim, böyük bir sirr yadıma düşdü. Onu sənə açmaq istəyirəm. Amma öz aramızda qalsın, heç kəsə demə. Camaata qızıl paylayanda Cəlaliyyə xatun xəzinədən mənə də üç silsilə qızıl boyunbağı ayırıb. O vaxt mənə dedi ki, boyunbağıları qalanın başındakı ən böyük daşın altına qoyacağam, gedib götürərsən. Mən də qoca nənəyəm, qalanın başına çıxmağa taqətim nə gəzir? Getmədim. Hər dəfə də Cəlaliyyə xatunu yuxumda görəndə məndən hey soruşur, ay qarı, niyə gedib boyunbağını götürmürsən?
İndi eşit! Sənə deyirəm! Gedərsən Naxçıvan məmləkətindəki Culfa obasına. Oradan da qalxarsan Əlincəqalaya. Çıxarsan qalanın düz başına. Dediyim daşın altından silsilə boyunbağıları götürərsən. Sonra heç yerə getməzsən ha, düz qayıdarsan Gülzar nənənin yanına. Boyunbağının birini verərsən nağılı sənə danışana, birini verərsən mənə, biri də olar sənin. Ondan sonra olarıq hamıdan varlı, hamıdan karlı. Vəssalam-şüdtamam.

## Tərs padşahla üç bacının nağılı
## (Nağıl)

Biri vardı, biri yoxdu, çox-çox qədim zamanlarda bir məmləkətin padşahı vardı. Əhli-məmləkət onun şahlığından çox razı idi. Amma saray əyanları onun tərsliyindən narazı idilər.
Vəzir, vəkil bir gün şahdan xəlvət yığılıb məsləhətləşirlər ki, şahı evləndirsinlər, bəlkə tərsliyindən əl çəkə. Vəzir gəlir şahın hüzuruna, baş əyib deyir:
-Qibleyi-aləm sağ olsun, evlənmək, oğul-uşaq sahibi olmaq vədən yetişib. Kimi istəyirsənsə, evlən.
Şah vəzirin bu sözündən sonra xeyli fikirləşir. Sonra isə deyir:

-Mən bu haqda çox fikirləşmişəm, amma özümə layiq qız seçə bilməmişəm. Gərək bu işdə mənə kömək edəsiniz.
Vəzir onun sözü ilə razılaşır:
-Baş üstə hökmdarım, əmr et, nə lazımdırsa, dərhal edək.
Şah əmr edir:



-Dərhal məmləkətdəki bütün dərvişləri, rəmmalları, falçıları mənim yanıma gətirin!
Vəzir çaşıb qalır:
-Ya hökmdar, sənə məmləkətin ən gözəl qızlarını gətirə bilərik, nəyinə lazımdır, falçı-filan?
Şah qəzəblənir:
-Vəzir, uzun danışma, yoxsa boynun vurular. Nə deyirəmsə, onu da elə!
Vəzir, vəkil, bütün saray əyanları soraqlayıb məmləkətdəki bütün dərvişləri, rəmmalları, fal açanları yığırlar şahın hüzuruna.
Şah onlara deyir:
-Eşidin və bilin! Mən evlənməliyəm. Amma elə qız almalıyam ki, dünyada ən gözəl qız olsun. Rəml atın, fala baxın, görün dünyada ən gözəl qız kimdirsə, mənə deyin. Falda ən gözəl qız kim çıxsa, dünyanın harasında olur, olsun, tapıb onunla evlənəcəyəm.
Saray əyanları, vəzir, vəkil və gələnlər şahın sözlərinə məətəl qaldılar. Amma qorxudan səslərini çıxarmadılar.
Dərvişlər rəml atdılar, falçılar fal açdılar. Hər biri öz falında çıxan qız haqda şaha danışdı, falda görünən qızı şaha təsvir elədi.
Şah dərviş Musanın dediyi qızdan başqa kimsəni bəyənmədi. Dərviş Musa şaha təzim edib dedi:
-Qibleyi aləm sağ olsun, atdığım rəml burdan çox-çox uzaqlarda yerləşən bir ölkəyə gedib çıxıb. Hər tərəf meşəlik görünür. Bir koma var. Komanın həyətində bir qız oturub. Qızın gözəlliyi hər tərəfə işıq saçır. Saçları Günəşin saçaqları rəngində, qaşları kamana, kiprikləri oxa bənzər, gül çöhrəli, bal dodaqlı bir qızdır. Başını aşağı salıb əlində nə isə tikir.
Padşah Dərviş Musanın sözlərini eşitcək ayağa qalxdı və dedi:
-Bax elə həmin həmin gözəl də mənim arvadım olacaq. Haradan olur-olsun gedib həmin gözəli sarayıma gətirməlisiniz. Vəzir, mənim gələcək ömür

yoldaşıma bahalı bəxşişlər hazırla. Elçilərlə birlikdə özün də səfərə çıx. O qızı tapıb mənim yanıma gətirməmiş gözümə görünməyin.
Vəzir ağsaqqal adamdı. Özü də dünya görmüşdü. Dedi:
-Şah sağ olsun, birincisi biz öyrənməliyik ki, falda görünən qızın əsli-nəcabəti varmı, onun böyükləri kimdir? Nə səbəbdən bu gözəllikdə qız doğmalarını, elini-obasını atıb meşədə tək-tənha qalır? Yaxud kim onu yalqız meşəyə atıb? Şahım, tanımadığın qızla evlənsən, bundan məmələkətimizə xəta-bəla gələr, rəiyyətinə ziyan toxunar. Əvvəlcə yaxşı-yaxşı götür-qoy elə, sonra evlən!
-Vəzir, deyəsən atam şah olanda səni pis öyrədib. Şahın bir sözün iki eləyən olmamalıdır. Mən dedimsə, həmin qızı tapmaq lazımdır, kimsə mənim sözümün qarşısında başqa söz deməyə cürət etməməlidir. Sənin yersiz məsləhətlərin şah taxtı-tacını hörmətdən salır. Lazımsız məsləhətlərin məni yorub. Fərraşlar, atın vəziri zindana. Qoy zindanda ağlı başına gəlsin.
Şahın tərsliyi vəziri bezdirmişdi. Amma qorxudan daha bir söz demədi. Bir kəlmə də desəydi, tərs padşah onu edam elətdirərdi. Vəzir neçə şaha qulluq eləmişdi, belə tərsini görməmişdi.
Vəziri zindana saldılar. Vəkil başda olmaqla, dərviş Musa və bir dəvə karvanı şah adamı bəxşişlərlə, xonçalarla getdilər şaha dünyanın ən gözəl qızını gətirməyə.
Az getdilər, çox getdilər, dağlar aşdılar, çaylar keçdilər, səhralarda susuz qaldılar, yolda vəhşi heyvanlara rast oldular, axır ki, birtəhər sağ-salamat gəlib dərviş Musanın dediyi dərin meşəyə çatdılar. Meşəyə təzəcə girmişdilər ki, gördülər bir keçəl qız oturub bulaq başında, baxır suya düşən əksinə, zülüm-zülüm ağlayır. Qız yolçuları görcək tez yanındakı çələngi götürüb başına qoydu, gözlərinin yaşını sildi. Piyaləni su ilə doldurub onlara uzatdı:
-Ey yolçular, meşəyə ova çıxana bənzəmirsiz. Dəvə karvanından bəlli olur ki, uzaq səfərə çıxana oxşayırsız. Su için, susuzluğunuz keçsin. Səfəriniz xeyirli olsun. Yolunuz açıq. Pisə rast olmayasınız.
Dərviş Musa dedi:
-Qız, neçə gündür bir qurtum suya həsrət qalmışıq. Ciyərimiz od tutub yanır. Amma ağlamağının səbəbini deməsən, əlindən su alıb içməyəcəyik.
Qız fikirləşdi ki, əgər yolçular su içməsələr, o günaha batacaq. Ona görə naəlac qalıb sirrini açdı:
-Siz ki, mənim sirrimi bilmək istəyirsiniz, onda qulaq asın. Mən o gördüyünüz dağın dalındakı kənddə yaşayırdım. Biz üç bacı idik. Atamız ağır mollaydı. Ona mollalıq irsən dədə-babasından keçmişdi. Hər şey bilirdi, yaxşılıq da, yamanlıq da. Amma heç vaxt yamanlıq eləmirdi. Hələ biz balaca olanda anamız ölmüşdü. Atam bizə yaxşı baxırdı, özümüzə də hər iş-güc öyrədirdi. Boya-başa çatan gündən gözəlliyimizin və yaxşı iş-güc bilməyimizin sorağı aləmə yayıldı. Hər yandan bizə elçi gəlməyə başladı.
Qonşuluğumuza başqa diyardan çirkin bir qız köçüb gəlmişdi. Adı Bəyimnisə idi. Anam öləndən sonra atam istədi həmin qızla kəbin kəsdirsin, onu evimizə gətirsin, biz razı olmadıq. Çünki çox ifritə qıza oxşayırdı. İşi-gücü paxıllığımızı çəkmək, bir də bütün günü həyətimizə baxmaqdı.

Bu qız elə ki, elçiləri biri-birinin dalınca qapımıza gələn gördü, paxıllıqdan azarlayıb yorğan-döşəyə düşdü. Atam Bəyimnisəyə baş çəkməyə getdi. Gözlədik, gözlədik, gecə düşdü, amma o geri qayıtmadı.
Mən bacıların ən böyüyü idim. Getdim atamın dalınca ki, görüm nə olub ki, atam geri qayıtmır? İçəri girən kimi gördüm atam daşa dönüb. Bəyimnisə də əllərini belinə qoyub, dayanıb onun başının üstündə. Məni görən kimi gəlib tutdu saçlarımdan dedi:
-İpək saçlar, gəlin mənim başıma, gəlməsəz, sahibinizi daşa döndərərəm! Daşa döndərərəm! Daşa döndərərəm!
O, bu sözləri deyən kimi mən gördüm ki, onun yoluq saçları mənim başıma bitdi, mənim ipək kimi sarı saçlarım isə onun başına. İstədim qışqıram, boğazımdan yapışıb dedi:
-Mən fala baxan kimi görmüşəm ki, sən - evin böyük qızı qoymamısan atan məni alsın. İndi öz dilinin cəzasını çəkərsən. Səsini çıxarsan, bacılarını daşa döndərərəm! Heç yana baxmadan düz gedərsən, dağın dalındakı meşəyə!
Mən bacılarımı çox istəyirdim. Onları daşa dönmüş görməyim deyə, düz qaçıb gəldim bura.
-Dərviş Musa dedi:
Bəs bacıların sonra səni axtarmadılar?
-İçin sudan, sonra bu cığırla düz gedin. Bir bulağa rast gələcəksiz. Bulaq başında bir qız var. Ona deyərsiz ki, keçəl qızın sirrini bilirsiz, indi də onun bacısının sirrini öyrənmək istəyirsiz. Sonrasını məndən yaxşı o bilir, sizə danışar.
Vəkilin qıza yazığı gəldi. Ona bir az qızıl verdi. Nə qədər elədisə də, qız heç nə götürmədi.
Şahın adamları gəlib keçəl qız dediyi bulağın başına çatdılar. Bu bulağın başında çaş, özü də bərələ gözlü eybəcər bir qız var idi. Qız bulağın suyunda öz əksinə baxıb, zülüm-zülüm ağlayırdı. Dərviş Musa keçəl qızın dediklərini qıza dedi. Qız o saat ağlamağını kəsib danışmağa başladı:



-Mənim bədbəxt, böyük bacım başımıza gələnlərin əvvəlini sizə danışdı. Qoy ondan sonrakı müsibətimizi mən sizə danışım. Elə ki, gördüm atamla böyük bacım Bəyimnisəgildən qayıtmadılar, kiçik bacıma dedim. Mən də qayıtmasam, məbada gələsən ora. Gedərsən

meydana, olanları kənd camaatına nağıl edərsən. Onlar dərdimizə bir çarə edərlər.
Bunu kiçik bacıma tapşırandan sonra qorxa-qorxa getdim Bəyimnisəgilə. Qapıdan içəri girəndə gördüm atam daşa dönüb. Qız da əlləri belində dayanıb onun başı üstündə. Məni görən kimi gəldi üstümə, tutdu boynumdan dedi:
-Gözəl gözlər, gəlin mənim gözüm olun, gəlməsəz, sahibinizi daşa döndərərəm! Daşa döndərərəm! Daşa döndərərəm!
O, bu sözləri deyən kimi mən gördüm ki, onun çəp gözləri mənim gözlərimin yerinə gəldi, mənim gözlərim isə onun yerinə getdi. İstədim qışqıram, boğazımdan yapışıb dedi:
-Səsini çıxarsan, bacılarını daşa döndərərəm! Heç yana baxmadan düz gedərsən, dağın dalındakı meşəyə!
Mən bacılarımı çox istəyirdim. Onları daşa dönmüş görməyim deyə, qaçıb gəldim meşəyə. Təzəcə meşəyə çatmışdım ki, gördüm böyük bacım da burdadır. O, məni görən kimi pırtlaşıq saçlarını yolmağa başladı. Oturub iki bacı ağlaşırdıq ki, gördük Bəyimnisə gəlir yanında da üzü çopur-çopur, eybəcər halda olan kiçik bacımız.
Bizdən sonra sonbeşiyimizin başına nələr gəlib, gedin onun özündən eşidin. Onun yanına çatan kimi deyin, bizi sənin yanına çəp gözlü bədbəxt bacın göndərib ki, başına gələnləri bizə danışasan.
Sonra çəp gözlü ortancıl bacı şahın adamlarına üçüncü bulağa və kiçik bacıya çatmaq üçün cığırı göstərdi.
Şah adamları bir xeyli dar cığırla yol getdilər. Gəlib balaca bacının yanına çatdılar. Balaca bacının üzü doğrudan da çox eybəcər idi. Qız o biri bacıları kimi bulağın suyunda öz əksinə baxır, dayanmadan ağlayırdı. Gələnləri görən kimi ağlamağını dayandırdı. Üzünün eybəcərliyini görməsinlər deyən, əlləri ilə üzünü örtüb soruşdu:
-Kimsiniz yolçular, hardan gəlib, hara gedirsiniz? Bu meşə tilsimlənib. Burda siz xeyir tapa bilməzsiz. Bir qurtum bulaq suyundan için, sonra qayıdın yolunuzdan.
Dərviş Musa dilləndi:
-Bizi sənin yanına keçəl qızla, çəpgöz qız göndərib ki, sən də öz başına gələnləri bizə danışasan.
Bunu eşidəndə qız əllərini üzündən götürdü və dedi:
-Ey qərib diyardan gəlmiş yolçular! Dediyiniz qızlar mənim bacılarımdır. Sizə də qurban olum, onların gələn sədalarına da. Bacılarımın sözündən çıxa bilmərəm. Qulaq asın başıma gələnləri sizə nağıl edim. Onların başına gələnlərdən yəqin xəbərdarsız, indi qulaq asın gerisinə. Mən gözlədim, gördüm nə bacılarımdan, nə də atamdan səs çıxmadı. Ortancıl bacımın dediklərinə qulaq asmayıb üz tutdum Bəyimnisənin evinə. Çatan kimi gördüm atam daşa dönüb, onun başı üstündə də Bəyimnisə əlləri belində dayanıb. Amma bacılarım orada yox idilər. Yaman qorxdum. Qayıdıb qaçmaq istədim. Elə bu vaxt Bəyimnisə gəlib mənim boğazımdan yapışdı və dedi:
-Gözəl çöhrə gəl mənim üzümə, gəlməsən, sahibini daşa döndərəcəyəm, daşa döndərəcəyəm!



Bir də gördüm ki, Bəyimnisənin üzü ay parçası kimi gözəlləşdi. Mənə baxıb qəhqəhə çəkib güldü. Əlimi üzümə sürtəndə üzümün çopur-çopur olmağını hiss elədim. Onun saçlarını, gözəl gözlərini görəndə başa düşdüm ki, o mənim böyük bacımın ipək kimi saçlarına, ortancıl bacımın gözəl gözlərinə sahib olub. Qapını açdım ki, həyətə qaçıb qonşuları köməyə çağırım. İfritə qız dedi:
-Burdan birbaşa meşəyə getməsən, səni də atan kimi daşa döndərəcəyəm. Mən qorxudan qaçdım meşəyə. O vaxtdan biz üç bacılar meşədə yaşayırıq. Kənd camaatı Bəyimnisənin tilsimkarlığını biləndən sonra onu daşa basıb kənddən çıxardıblar. O da indi meşədə qalır. Bizim hər birimizi bir bulağın yanında gözətçi qoyub ki, düşməni qara ilan onun içdiyi suyu zəhərləməsin. Bəyimnisəni ancaq həmin qara ilanın zəhəri öldürə bilər.
Dərviş Musa soruşdu:
-Bəs sən bütün bunları hardan bilirsən?
Qız ağlaya-ağlaya cavab verdi:
-Cadugər qız hər gün üç bulağın birindən su içir. Hər gələndə də gözəlliyi ilə bizə acıq verir. Hikkəsindən bütün içindəki qara fikirlərini bizə danışır. Deyir ki, dünyanın ən varlı padşahı mənə elçi düşəcək, gəcavədə gəlin aparıb toy edəcək. Elə ki, padşah məni özünə arvad elədi, onu öldürüb bütün şahlığı əlimə keçirəcəyəm. Siz isə mənim qaravaşlarım olacaqsız. Biz bacılar ondan, onun tilsimlərindən çox qorxuruq.
Kiçik bacı bunları danışanda dərviş vəkilə baxdı. Onlar başa düşdülər ki, aparmağa gəldikləri qız həmin ifritə qızdır. Gəldiklərinə peşman oldular. Vəkil dedi:
-Biz qızsız qayıtsaq, tərs şahımız bizi mütləq edam edəcək. Dərviş, bir yol göstər, həm məmləkətimiz ifritə qızın əlinə keçməsin, həm də başımız salamat qalsın.
Dərviş Musa qəm dəryasına qərq oldu. Bir xeyli fikirləşəndən sonra dedi:
-Biz bu binəva qızları da cadugərin əlindən qurtarmalıyıq. Bününçün rəml atmalıyam, görüm onun tilsimlərini nə cür sındırmaq olar?
Dərviş bulaqdan bir piyalə su götürdü. Başına qara bir dəsmal saldı. Bir müddətdən sonra qan-tər içərisində ayağa qalxdı. Başındakı dəsmalı bir tərəfə tullayıb dedi:

-Yalnız qara ilanın zəhəri cadugər qızı məhv eləyə bilər. Ondan sonra isə bütün tilsimlər sınacaq.
Vəkil yazıq-yazıq dilləndi:
-Bəs biz indi qara ilanı necə tapa bilərik ki? Meşə doludur qara ilanla.
Kiçik bacı dedi:
-Bəyimnisənin düşməni qara ilan bilir ki, ifritə hər gün səhər bir bulaqdan su içir. Ona görə o bulaqları güdür ki, yanında adam olmayanda zəhərini suya töksün, düşmənini öldürsün. İki gündür ifritə bu bulaqdan su içmir, səhər tezdən mütləq bura su içəməyə gələcək. Bəlkə də gecəni bulaqdan aralıda dayansam, ilan gəlib zəhərini suya tökər.
Vəkil və dərviş Musa qızın yanında qaldılar. Karvanı və onlarla gələnləri isə meşənin qırağına göndərdilər. Özləri isə kiçik bacı ilə birgə bulaqdan aralı bir yerdə gizləndilər.
Üçünü də necə yuxu tutdusa bir də ilan fısıltısına oyandılar. Ayılıb gördülər ki, bir böyük qara ilan fısıldaya-fısıldaya sürünür bulağa sarı. Səslərini çıxarmadılar. Uzaqdan ilanı güddülər. Qara ilan yaxınlaşdı bulağa. Qara nazik boynunu uzadıb yan-yörəsinə baxdı. Sonra isə ağzını bulağa uzatdı. Sonra isə başını qaldırıb sürünə-sürünə getdi.
Dərviş, vəkil və kiçik bacı bulağa yaxınlaşanda gördülər ki, suyun içərisində, ilan ağzını bulağa soxduğu yerdə neçə damcı yamyaşıl zəhər var.

Kiçik qızın qorxudan rəngi ağappaq olmuşdu. O, qorxa-qorxa dedi:
-Gün çıxıb, indi Bəyimnisə harda olsa gələcək bulaq başına. Tez bir yerdə gizlənin ki, sizi görməsin.
Dərviş Musa da, vəkil də sıx kolun dalında gizləndilər. Bir azdan Bəyimnisə gəldi. Dərviş baxıb gördü ki, bu elə şahın hüzurunda rəml atanda falda görünən qızın özüdür. Amma onda baxışlarını aşağı işə dikmişdi deyən, gözlərindəki cin-şeytan görünməmişdi. İndi isə onun gözləri nə qədər gözəl də olsa, içərisində cin-şeytan görünürdü. Bulaq başına çatan kimi ifritə kiçik bacının üstünə qışqırdı:
-De görüm buralara gələn olmayıb ki?
Kiçik bacı qorxa-qorxa dilləndi:
-Yox!

- Bəs onda cavab ver görüm, otlar niyə tapdanıb? Mənə yalan deyirsən? İstəyirsən səni də, bacılarını da daşa döndərim?
-Heç kəs bulaqdan su içməyib. Bəs mən nəyə görə burda bulağı qoruyuram. İki nəfər göbələk yığmağa gəlmişdi, istədilər su içsinlər, qoymadım, - deyə kiçik bacı qorxusundan yalan danışdı.
Bəyimnisə hirslə əyilib piyaləsini bulaqdan doldurdu. Suyu birnəfəsə başına çəkdi. İçən kimi də rəngi qapqara oldu. Yerindəcə qıvrıla-qıvrıla qaldı. O qədər qıvrıldı ki, döndü oldu ağ ilan. Elə bil qara ilan da bunu gözləyirmiş. Haradansa peyda oldu, ağ ilanın boğazından tutub boğub öldürdü. Sonra isə ağzını tutdu bulağın suyuna nə ki, bulağa zəhər tökmüşdü, təzədən sümürdü yığdı ağzına.
Dərviş Musa, vəkil və kiçik bacı qorxularından quruyub qalmışdılar. Hannan-gecdən özlərinə gələn kişilər gördülər ki, kiçik bacının üzündə çopurluqdan əsər-əlamət qalmayıb. Qız dönüb olub gözəllər-gözəli. Qız da gördü ki, yanındakılar ona qəribə-qəribə baxırlar, əyilib bulaqda özünə baxdı. Gördü yenə də əvvəlki kimi gözəl çöhrəsi yerinə gəlib. Sevincdən qışqırıb götürüldü ortancıl bacısının yanına. Böyük bacı o tərəfdən saçlarının qayıtmağını görən kimi o da qaçdı ortancıl bacının yanına. Hər üç bacı yenə də əvvəlki görkəmlərinə qayıtdıqlarına sevindilər. Bir də gördülər dərvişlə vəkil gəlir. Dərviş bu ölkəyə gəlmələrinin səbəbini qızlara danışdı. Vəkil isə dedi:
-Qızlar, biz şahımıza qız tapmaqdan ötrü diyarbadiyar gəzmişik. Sizdən ağıllı, sizdən gözəl qızlara rast gəlməmişik. Gəlin gedək bizim məmləkətə. Böyük bacını şah seçər, ortancılı vəzirin oğluna verərik, kiçik qızı isə mən oğluma alaram.
Böyük bacı dedi:
-Ey qəriblər, siz bizi tilsimkarın əlindən qurtarmısınız. Tilsimi sındırıb bizi yenə də əvvəlki görkəmimizə qaytarmısınız. Biz sizə minnətdarıq. Amma bizim bədbəxt atamız ifritənin evində daşa dönmüş halda qala-qala bizim necə ürəyimiz açılar ki, ərə gedək. Nə qədər ki, atamız daşa dönüb, bizim də ürəyimiz daş olacaq, biz kimsəni sevə bilməyəcəyik.
O biri bacılar da böyük bacılarının dediklərini təsdiq elədilər.
Bacılar şahın adamlarını da götürüb kəndə - evlərinə tərəf getməyə başladılar. Bir də gördülər ki, uzaqdan ataları da onlara tərəf gəlir. Bacılar qaçıb atalarını qucaqladılar. Başlarına gələnləri bir-birlərinə danışdılar. Sonra isə şahın adamlarını evlərinə qonaq apardılar. Ataları biləndə ki, qərib ellilərdi onların qızlarını tilsimkarın əlindən qurtaran, onların istəyini yerinə yetirdi. Qızlarına xeyir-dua verib onlarla birgə yola saldı.



Şah uzaqdan gələnləri gördü. Səbri çatmadı gəldi qızı görməyə. Gördü gəcavədə üç qız oturub, üçü də biri-birindən gözəl. Çaşıb qaldı. Dərviş Musanı köməyə çağırdı:
-Ay dərviş, gəl gör rəml atanda çıxan qız bunların hansıydı?
Dərviş Musa dedi:
-Qibleyi-aləm sağ olsun! Falda görünən qız bunların heç biri deyil!
Şah qəzəbləndi:
-Necə yəni? Siz mən deyən qızı nə səbəbdən gətirməmisiniz? Vəkil, bu nə məsələdir?
Vəkil qorxa-qorxa da olsa başlarına gələnləri olduğu kimi nağıl elədi. Şah vəziri nahaq zindana saldığını indi başa düşdü. Onu tez azad etməyi əmr etdi. Özü isə həmişəlik tərsliyindən əl çəkdi.
Sonra padşah qırx gün, qırx gecə toy eləyib böyük qızla evləndi. Ortancıl bacını vəzirin oğluna, kiçik bacını isə vəkilin oğluna aldılar. Şah Dərviş Musanı sarayda- yanında saxladı. Elə demək istəyirlim ki, nağılımız da buradacana qurtardı, göydən leysan yağış başladı. Üç bacının üçü də qaça-qaça üstümə gəldilər və bir səslə dedilər:
-Nağılçı, ay nağılçı, nə olar, hələ nağılı qurtarma. Göydən yağan atamızın göz yaşlarıdı. O, bizdən ayrı qala bilmir, göz yaşı tökür. Bir çarə et!
Qızlara yazığım gəldi. Onları eşidib nağılımı qurtarmadım. O vaxta qədər səbr elədim ki, şah adam göndərdi, qızların atasını gətirtdi məmləkətinə.
Böyük qız atası gələnə qədər mənə isti bir cırıqqa toxumuşdu. Mən o cırıqqanı yüz ildir ki, geyinirəm, elə bil indi toxunub. Ortancıl qız mənə yundan bir şal toxumuşdu. Şal elə gözəldi, elə gözəldi ki, min göz istəyir tamaşa eləsin. Neçə yol yüz qızıl veriblər, onu verməmişəm. Kiçik qız isə mənə elə gözəl qırçınlı tumman tikmişdi ki, onu yüz ildi toylara geyinirəm, hər geyinəndə də toydakılar deyir, tummanın mübarəkdi, ay nənə!

## Ən qiymətli nemət
## (Nağıl)

Biri var idi, biri yox idi, Sərraf adlı oğlan var idi. Sərraf çox tənbəl idi. Ata-anası nə qədər ki, sağ idi, o heç nədən korluq çəkmirdi, elə ki, onlar öldülər, oğlan

yeməyə yavan çörək belə tapmadı. Bir-iki gün qonşulardan çörək alıb yedi. Amma işləmək istəmədi. Bunu görən qonşusu Məhəmməd kişi dilə gəldi:



-Bala, cavan oğlansan, niyə bir tikə çörəkdən ötəri başqasına möhtac olursan. İşlə, yad adama möhtac olmaqdansa, öz əllərinə möhtac ol!
Sərraf bikef-bikef dilləndi:
-İstəyirsiz mən iş görənə qədər, pul qazanana qədər ac qalım? Heç ata-anam sağ olanda mənnən belə danışmırdız. İndi mən yetim qalmışam, hamı mənnən kobud danışır. Heç kəs mənə kömək eləmək istəmir. Lazım deyil mənə sizin çörəyiniz, onu gedib başqa adamdan da alaram.
Sərraf başladı bütün günü veyil-veyil gəzməyə. Acanda da qapıları döyüb çörək istədi. Onu sağlam görən qapıdan qovdu, çörək vermədi.
Axşam düşdü. Sərraf acından ölürdü. Çəkildi kimsəsiz bir yerə. Oturdu iri bir daşın üstündə. Gördü acından qarnı sancıdan doğranır. Qarnını qucaqlayıb, zülüm-zülüm ağlamağa başladı. Bu vaxt bir ağ saçlı, ağ saqqallı, ağ libaslı, nurani bir kişi Sərrafa yaxınlaşdı. Ağlamağının səbəbini soruşdu:
-Kişi ağlamaz, səni ağladan nədir, sirr deyilsə de mənə, bəlkə dərdinə bir çarə edə bildim.
Sərraf dərdini açıb qocaya danışdı. Nurani qoca Sərrafın halına acıdı:
-Yazıq cavan, mən də cavanlıqda sənin kimi idim. Kimə ağız açırdım, bir tikə çörəkdən ötəri, hərə bir söz deyirdi. Biri deyirdi, əlin ayağın sağ-salamat, mən niyə ruzumu sənə verməliyəm? Başqa biri deyirdi, ağlın başında, görən gözün, mən niyə sənə çörək verim. Belə-belə çox ac qaldım, axırda əlacsız qalıb iş-güc öyrəndim.
Sərraf gördü qoca onun halına acıyır, ürəyini ona açdı:
-Əlbəttə, mənə də uşaqlıqdan hər işi öyrətsəydilər mən də indi hamı kimi işləyərdim. Amma mənə ata-anam hər şeyi özləri veriblər, özümə də iş öyrətməyiblər. İndi mən də heç nə eləyə bilmirəm.
Qoca dedi:
-Mən sənə kömək edərəm, ac qalmarsan. Amma gərək mən deyənləri edəsən. Razısansa, deyim.
Sərraf sevindi:
-Əlbəttə razıyam, de görüm nə deyirsən?

Nurani qoca dedi:
-Gedərsən qoşun başçısının yanına deyərsən məni sənin yanına əmin göndərib ki, məni döyüşçü götürəsən, özümə də hər şeyi öyrədəsən.
Sərraf tez dilləndi:
-Nə danışırsan, ay qoca? Mənim gücüm var döyüşüm? Neçə gündür acam. Kimnən döyüşsəm məni götürüb vurar yerə. Elə həmən canım çıxar. Məndən döyüşçü çıxmaz, məni başqa işə göndər.
Qoca bir az fikirləşəndən sonra dedi:
-Onda gedərsən qazinin yanına, deyərsən məni sənin yanına baban göndərib. Onun böyük qoyun sürüsü var. Çoban axtarırdı. Səni götürər çobanlığa, bir tikə çörəyin olar.
-Heç bu iş də mənlik deyil, -dedi oğlan, - cavan oğlanam, sonra mənə yaxşı qız gəlməz. Deyərlər, çobanın biridir. Heç nə qanmır.
Nurani kişi səbrlə Sərrafı başa saldı:
-Başqa əlacın yoxdur, onda acından öləcəksən.
Sərraf acından ölməkdən qorxdu, dedi:
-Yaxşı, acından ölməkdənsə, çoban olaram.
Getdi qazinin yanına. Qoca dediklərini qaziyə dedi. Qazi oğlanı çox mehriban qarşıladı. Yedirtdi, içirtdi, aparıb heyvanların arxac yerini, yəni qoyunların yatdığı yeri göstərdi ki, sübh tezdən Sərraf heyvanları otarmağa aparsın. Sərraf da razılaşdı.
Qazi axşamdan Sərrafın heybəsinə yemək qoydurdu ki, heyvan otaranda ac qalmasın.



Sərraf gecəni rahat yatdı. Bir vədə oyandı ki, gün günorta olub, qazi işdən günorta namazına qayıdıb. Heyvanlar da qalıblar ac-susuz, mələşə-mələşə. Qazi hirslənsə də heç nə demədi. Sərraf durub yeməyini yedi, heybəsini çiyninə saldı, yuxulu-yuxulu heyvanları qabağına qatıb otarmağa apardı. Böyük bir çəmənliyə çatdı. Gün başına döymüşdü deyə, bir kölgəlik tapdı. Heyvanlar ac idilər. Dayanmadan otlamağa başladılar. Bir az oturandan sonra Sərrafı yuxu tutdu. Bir də səsə ayıldı ki, canavarlar qoyunlara hücum ediblər. Sərraf ayağa duran kimi canavarlar çobanı görüb sürüdən əl çəkdilər. Amma qoyunların neçəsini yemişdilər.

Axşam tərəfi Sərraf sürünü həyətə gətirdi. Qazi qoyunlarını sayanda gördü ki, heyvanlardan düz on dördü əskikdir. Sərrafı o qovan qovdu.
Sərraf yenə hər gün başladı ət kəsənlərdən, çörək bişirənlərdən, şirni satanlardan yemək istəməyə. Amma heç kim ona heç nə vermədi.
«Elə bil camaatın ürəyi daşdandır», - deyə Sərraf fikirləşdi. Acından qarnı sancılandı. Axşam düşmüşdü. Yenə də gəlib üç gün bundan qabaq qoca ilə rastlaşdığı yerə gəldi. Oturdu daşın üstündə ki, bəlkə sancısı kəsə. Bu vaxt qoca peyda oldu və ondan soruşdu:
-Neyləyirsən burda?
Sərraf dilləndi:
-Acından ölürəm, qoca mənə kömək elə!
Nurani qoca soruşdu:
-Bəs qaziyə çobanlıq eləmədin?
Sərraf öz elədiklərindən heç nə demədi, qazini günahkar saydı:
-Qazi adam yola verən deyil, heç nəyin üstündə məni qovdu.
Qoca mənalı-mənalı gülümsündü, çünki hər şeydən xəbərdardı. Dedi:
-Mən daha sənə heç bir kömək edə bilmərəm. Onda get, qapı-qapı dilənçilik elə, bir qarın çörəyə.
Sərraf ona da razıydı, amma bu da əlindən gəlmirdi:
-Sən elə bilirsən ki, mənə bir tikə çörək, ya da bir quruş pul verən var? Hamı deyir ki, şikəst olsaydın sənə pul verərdik. İndi ki, bizim kimi, əlin-ayağın, görən gözlərin var, get özün pul qazan!
-Hər kəs özü zəhmət çəkib özünə çörək pulu qazanmalıdır, onu düz deyirlər, - dedi qoca.
Sərraf qocanı dilə tutmaq istədi:
-Qoca, mən onların dediyini edəcəyəm. Amma qoy iş-güc əlimdən gələnə qədər sənin varlı qohum-əqrəban mənə bar az puldan-qızıldan versinlər.
Qocanın səbri tükənsə də Sərrafı başa salmaq qərarına gəldi:
-Hər kəs özü zəhmətilə özünə ruzi-bərəkət qazanar. Tanrı həmin ruzinin qədrini bilməyənləri cəzalandırar, verdiyini onlardan geri alar. Kimsənin mal-dövlətinə heç vaxt göz dikmə.



Sərraf acığını qocaya tökdü:

-Sənin məsləhətindən belə başa düşürəm ki, mən acından ölməliyəm. Tanrı məni şikəst eləsəydi, mənə də bir tikə çörək verərdilər.
Nurani qoca rəhmsiz bir görkəm aldı:
-Bu heç də çətin deyil! Sehr oxuyub səni şikəst edə bilərəm! Sən də asanlıqla çörək pulu qazana bilərsən. Kimsə bir tikəsini səndən əsirgəməz.
Sərraf əvvəlcə inanmadı:
-Sən sehr bilirsənsə, mənə çoxlu var-dövlət ver. Şikəst niyə edirsən məni, ürəyin daşdandı bəyəm?
Qoca dilləndi:
-Sən dünyada ən qiymətli nemət olan can sağlığının qədrini bilmirsən. Tanrıdan şikəstlik istəyirsən, mən də sənin ancaq bu istəyini yerinə yetirə bilərəm.
Sərraf qocanı yoxlamaq istədi:
- Can sağlığı ən qiymətli nemət olsaydı, mən indi hamıdan dövlətli olardım. Lazım deyil mənə belə qiymətli nemət. Mən acından öləndən sonra o sağlamlığın mənim üçün heç bir qiyməti yoxdur. Şikəst olum, amma bir tikə çörəyim olsun. Əgər sən doğrudan da sehlisənsə, onda mənim baş barmağımı yox elə! Qoca, birdən peşman olsam, barmağımı təzədən mənə qaytara bilərsən?
Qoca Sərrafı başa sala bilmədiyinə təəsüfləndi. Dedi:
-Əlbəttə qaytara bilərəm. Nə vaxt peşman olsan, gələrsən, yenə də barmağını yerinə qaytararam.
Sonra qoca oğlanın baş barmağını torpağa basdırıb dua oxudu və bərkdən dedi:
-Sərrafın baş barmağını özündən qabaq sənə göndərirəm, ac torpaq! Ac torpaq! Ac torpaq!
Bu vaxt hər tərəfə zülmət qaranlıq çökdü. Ayın üzü tutuldu. Yer titrədi. Sərraf elə bildi ki, zəlzələdi. İstədi əlini torpaqdan çıxardıb qaçsın. Birdən hər şey əvvəlki kimi oldu. Ayın üzü açıldı. Yerin titrəməsi dayandı. Sərraf əlinə baxanda gördü ki, baş barmağı yoxdu. Qorxudan qışqırdı. Amma tez də sakitləşdi. Fikirləşdi ki, neyləyir bir barmağı? Onun əvəzində ona nə istəsə verəcəklər. Daha heç kəs deməyəcək, «şikəst deyilsən ki, sənə çörək verək».
- Çox sağ ol, qoca, baxarsan, indi mənim həmişə çörəyim olacaq, - Sərraf dedi qocaya və sonra isə düz yollandı yaxınlıqdakı dülgər emalatxanasına. Emalatxanada işləyəndən çörək istədi. Dülgər ona baxıb dedi:
-Oğlan əlin-ayağın, mən niyə sənə çörək verməliyəm? Get, zəhmət çək, çörək pulunu özün qazan!
Sərraf şəstlə olmayan barmağını dülgərə göstərib dedi:
-Barmağımı görsən heç vaxt belə danışmazsan! Tez elə mənə çörək ver!
Dülgər əlindəki taxtanı yerə qoyub əlini açdı. Sərraf gördü ki, dülgərin iki barmağı yoxdur, dedi:
-Bəs sən niyə şikəst əllə işləyirsən?
Dülgər cavab verdi:
-Cavanlıqdan bu sənəti öyrənmişəm, İndi də sənin kimi qapı-qapı düşüb dilənməyim deyə, yenə işləyirəm, bir parça çörəkdən ötəri heç kəsə boyun əymirəm. Buna görə də Tanrıma şükür edirəm.

Sərraf dülgərin yanından çıxıb düz qocanın yanına qayıtdı və dedi:
-Mənim bir barmağımı şikəst eləmisən, amma mənə yenə də sədəqə verən yoxdur. Heç olmasa qollarımın ikisini şikəst elə, bəlkə onda mənə qarın dolusu yemək verən olar.
Qoca elə bil Sərrafın bu sözünə bənd idi. Oğlana dedi:
-Torpağı qaz, qollarını çiynindən aşağı torpağa basdır!
Elə ki, Sərraf qollarını torpağa basdırdı, qoca vahiməli bir səslə dua oxudu, sonra isə dedi:
-Sərrafın qollarını özündən qabaq sənə göndərirəm, ac torpaq! Ac torpaq! Ac torpaq!
Bu vaxt yenə də hər tərəfə zülmət qaranlıq çökdü. Ayın üzü tutuldu. Yer titrədi. Az keçmədi ki, hər şey əvvəlki kimi oldu. Ayın üzü açıldı. Yerin titrəməsi dayandı.
Sərraf belini dikəldəndə gördü ki, qolları yoxdu. Hönkür çəkib ağladı. Hamını qarğadı, ona bir tikə çörəklərini əsirgədiklərinə görə.
Qoca sakitcə bir daşın üstündə oturub Sərrafa baxır, səsini çıxartmırdı.



Sərraf ağlaya-ağlaya ayağa durub evlərinə gəldi. İki gün idi ki, ac idi. Acından gecəni yuxusuz qaldı. Səhər obaşdan bazara yollandı. Bazardakılar gördülər ki, iki qolundan şikəst bir oğlan dilənməyə gəlib. Onun halına acıdılar. Gətirib oğlana çoxlu nəzir-niyaz verdilər. Amma Sərrafın əlləri olmadığından onları nə götürə bildi, nə apara bildi, nə də yeyə bildi. Qaldı baxa-baxa. Yaxınlaşdı bal-yağ satana. Bal-yağ satan gördü şikəst gəlib onun yanına, tez bir dolu kasa balla-yağı qarışdırıb qoydu Sərrafın qabağına ki, yesin. Sərrafın əlləri olmadığından o başını uzadıb ağzı ilə bal-yağı yaladı. Bütün ağzı, burnu bala batdı. Qarnı doyandan sonra kefi kökəldi.
Bazardan çıxdı, üz tutdu evlərinə tərəf. Balın ətrinə gələn arılar yolda başladılar Sərrafın ağız-burnunu yalamağa. Oğlan da başını tez-tez o yan-bu yana tərpətdi ki, arılar onu sancmasınlar. Bundan qəzəblənmiş arılar Sərrafı o ki var, sancdılar. Üz gözündə salamat yer qoymadılar. Başsız oğlan əllərinin qədrini indi bildi. Üz-gözü o qədər şişdi ki, gözləri ayağının altını güclə gördü.
Təzədən o boyda oğlan gözlərinin yaşını tökə-tökə gəldi qocanın yanına. Qoca oğlanı bu gündə görəndə dözmədi:

-Tənbəlliyin gör səni nə günə qoydu, oğlan! İndi məndən nə istəyirsən? Nəyə gəlmisən?
Oğlan dedi:
-Qoca, mənə bircə sən kömək edə bilərsən. Qoldan şikəst olmaq istəmirəm. Əllərim yoxdur deyən mənə verilən nəzirləri nə daşıya bilirəm, nə də yeyə bilirəm. Dərdimə çarə et qoca, qollarımı geri qaytar, onun yerinə ayaqlarımdan şikəst olum. Onda mənə çətin olmaz. Heç olmasa tapdığımı yeyə bilərəm.
Qoca oğlanın dediklərinə əməl elədi. Oğlanın iki qıçı da dibindən yox oldu. Şikəst Sərraf iki ağac tapıb özünə qoltuq ağacı elədi. Özünü birtəhər evlərinə çatdırdı.
Gecəni yatdı. Səhər ertədən durdu ki, gedib bazarda firnidən, xəşildən, bal-yağdan zaddan doyunca yesin. Təzəcə bazara çatmışdı, hay-küy düşdü ki, kəndə sel gəlir. Qaçhaqaç başlandı. Bazardakılar qaçıb canlarını qurtardılar. Sərrafın isə qoltuq ağaclarını da sel apardı. Hər yanı palçıqlı su basdı.
Oğlan indi sağ ayaqlarının qədrini bildi. Amma gec idi. Sehrli qoca da yanında yox idi ki, ona kömək eləyə. Suyun içərisində çapalamağa, bərkdən qışqırıb camaatı köməyə çağırmağa başladı. Kimsə onun səsini eşitmədi, dadına yetişmədi.
Sel-su o qədər çoxaldı ki, oğlanın boğazına qədər çıxdı. Üç gün Sərraf boğazına qədər suyun içində qaldı. Fikirləşdi ki, daha son nəfəsidir, Allaha yalvarmağa başladı:
-Allah, keç günahımdan, sağ canımın qədrini bilmədiyimə görə, bir qarın yeməkdən ötrü özümü salamat ikən şikəst elədiyimə görə.
Bir də oğlan gördü ki, su get-gedə azaldı. Su azalan kimi ən əvvəl bazara malı qalanlar qayıtdılar. Camaat şikəst oğlanı suyun içərisində görəndə halına acıdı. Ona çoxlu yeməli, pul nəzir verdilər. Sərraf isə onların heç birisini götürmədi. Sürünə-sürünə yollandı qoca ilə rastlaşdığı yerə, Qoca elə bil oğlanı gözləyirdi:
-İndi haranın şikəst olmasını istəyirsən? İstəyirsən gözlərindən bimar edim səni? Onda sənə daha çox sədəqə verərlər. Heç bazara da getməyin lazım olmaz. Gətirib hər şeyi evində verərlər sənə. Hamıdan çox yeyərsən. İstəyirsən razı ol, elə indicənə səni kor edim!
Sərraf şikəstliyin nə olduğunu bilirdi. Ona görə də qocanın sözünü kəsdi:
-Yox, mənim sağlam canımı, sağlam ayaqlarımı mənə qaytar, daha mənə heç nə lazım deyil. Öz çörəyimi özüm qazanaram. İndi başa düşmüşəm ki, ən qiymətli nemət doğrudan da canın sağlamlığıdır.
Qocanın xoşuna gəldi oğlanın dedikləri. O, başa düşdü ki, sehri Sərrafın ağlını, dünya görüşünü artırıb, oğlanı ağıllandırıb. Sevindi:
-Torpaq, a torpaq, qaytar Sərrafın ayaqlarını, qaytar. Peşman olub, keç onun taqsırından, peşman olub!..
Yer titrədi, Günəşin üzünü qara buludlar aldı, çox keçmədi ki, yer də sakitləşdi, Günəşin üzü də açıldı.
Bu vaxt Sərraf öz ayaqlarının torpağın altında ağrıdığını hiss elədi. Ayaqlarını nə qədər çəkdisə torpağın altından çıxara bilmədi. Əlləri ilə torpağı eşməyə başladı. Torpağın altında ayaqlarını görəndə çox sevindi. Qalxdı ayağa, nurani qocaya «sağ ol», dedi, sehrləri ilə ona hər şeyi başa saldığına görə.



Yola düzəldi, düz getdi meşəyə. Əlləri tikanlı kollara ilişə-ilişə çoxlu, moruq yığdı. Aparıb bazarda satdı. Əlinə çoxlu pul gəldi. Sevinci yerə-göyə sığmadı. Elə o gündən də tənbəlliyin daşın atdı. Əllərini göyə qaldırıb sidq ürəkdən Tanrıya dua elədi. Allahın ona bəxş elədiyi ən qiymətli nemətə görə . Ondan əsirgəmədiyi can sağlığına və verdiyi ruzuya görə.

Sərraf yedi, içdi, arzusuna çatdı, biz də öz istəklərimizə çataq. Nağılımız da qoy burda sona çatsın, biz də səninlə bir yerdə dua edək Tanrıya, bizə verdiyi əqlə, zəkaya bir də sağlam cana görə.

«Şükür, sənə Yaradan, bizə hədiyyə etdiyin bütün nemətlərə görə», deyək!..

**Körpə uşaqla xallı keçinin nağılı**
**(Nağıl)**

Biri var idi, biri yox idi, bir Muxtar kişi vardı. Muxtar kişi yaxşı zərgər idi. Özünün zərgər dükanı var idi. Varlı adamlardan sayılırdı. Özü də çox yaxşı adamdı. Kasıba-kusuba əl tutan, xeyrə-şərə yarayandı. Amma kişi övladı olmadığından uzun müddət dərd çəkmişdi. İndi isə yaşının qoca vaxtında arzusuna çatmağa az qalırdı. Arvadı Gülsona xanım hamilə idi. Gülsona xanımın üzü nurluydu. Özü də çox mehribandı. Bir xallı keçisi vardı. Onun yanından aralanmazdı. Aralanan kimi mələrtisi aləmi götürərdi. Gülsona xanım onunla o qədər danışardı ki, elə bil keçi dil başa düşərdi.


Ata olacağını eşidəndən sonra zərgər Muxtarın sevinci yerə-göyə sığmırdı. Kasıb-kusuba nəzir-niyaz paylayırdı. Övladı olan günü həsrətlə gözləyirdi.
Gün gəldi, vədə yetişdi, Muxtar kişi oğul atası oldu. Kişiyə həm şad xəbər dedilər ki, oğlun olub, həm də qara xəbər dedilər ki, arvadın doğanda öldü. Kişinin bir gözü güldü, bir gözü ağladı. Kişiyə başsağlığına gələnlər ona dedilər ki, körpənin xatirinə tez evlənməlidir.
Muxtar kişi çar-naçar evinə yaxşı tanımadığı bir dul arvad gətirdi. Sən demə, bu arvad hiyləgərin, acgözün biriymiş. Muxtar kişinin zərgər olduğunu eşidən kimi kişiyə gəlməyə razılıq verdi. Amma körpə oğlu olduğunu eşidəndə cin vurdu təpəsinə. Ürəyində fikirləşdi ki, bir o qalmışdı ki, gedib özgəsinin küçüyünü saxlayım.
Amma Muxtar kişinin var-dövlətini əlinə keçirmək üçün hər şeyə razıydı. Arvadı Muxtar kişinin evinə gətirdilər.
Muxtar kişi onu ağlaya-ağlaya qarşılayıb dedi:
-Mənim ocağıma xoş gəlibsən, Umnisə xanım! Evim, varım, dövlətim hamısı sənindir, amma səndən bircə istəyim var. Mənim oğluma yaxşı baxasan. Öz balan kimi.
Umnisə özünü ürəyinazik göstərdi. Gözlərinin yaşını axıtdı, dedi:
-Əlbəttə, mən sənin balana öz balam kimi baxacağam. Onu doğma anasından yaxşı böyüdəcəyəm. Sənə söz verirəm, - deyib Umnisə yalandan and içdi.
Muxtar kişi gedib tövlədən rəhmətlik arvadının sevimli xallı keçisini evə gətirdi. İnsan ilə danışırmış kimi keçi ilə danışdı:
-Sənin sevimli sahibən öldü, bu körpə isə ondan bizə yadigar qalıb. Onu südsüz qoyma.
Sonra isə Umnisəyə dedi:
-Bu rəhmətliyin ən çox sevdiyi keçi idi. Hara gedirdisə, bu keçi də onun dalınca gəzirdi. Yaxşı yağlı südü var. Elə bircə bu keçinin südündən versən oğluma bəs edər. Keçini ayrı saxlarsan, yemini də bol edərsən ki, südü bol olsun.
Arvad özünü ərinə göstərmək üçün tez bağdan bir qucaq ot yolub gətirdi, elə evdəcə tökdü keçinin qabağına. Keçi şirin-şirin otu yeməyə başladı.

Bütün bunları Umnisə arvad gözə girmək üçün edirdi. Əslində isə onun ürəyində başqa fikirlər vardı. Fikrində bu idi ki, Muxtar kişinin bütün varı-dövləti təkcə ona qalsın. Arvad qızıl, daş-qaş hərisi idi. Ürəyində götür-qoy elədi ki, əgər Muxtar kişinin oğlu sağ qalsa, böyüyəndə bütün var-dövlət onunku olacaq. Amma indidən ölsə Muxtar kişi arvadının ölümünə, ondan sonra da oğlunun ölümünə dözə bilməyəcək, onlardan sonra da özü öləcək. Bunun üçün təkcə körpəyə süd verməsəydi, körpə iki günə öləcəkdi.

Bu qara fikirlərlə də Umnisə dərdli ərini arxayın elədi. Özü də körpənin beşiyini Muxtar kişi yatan yerdən ən uzaqdakı evə apardı ki , ağlayanda atası səsini eşitməsin.

Muxtar kişi isə təzə arvadı ilə söhbətindən sonra emalatxanaya getdi. O, işləyib başını işlə qarışdırmaq istəyirdi.

Körpə bir müddət sakit dayandıqdan sonra acıb ağlamağa başladı. Umnisə gəlib onun başı üstündə dayandı və dedi:

-Mən sənə yemək verməliyəm ki, böyüyəsən mənim var-dövlətimə sahib çıxasan? Onu görəməyəcəksən! Öl, gəbər, canın çıxsın!

Sahibəsi övladsız idi deyən, mehrini keçiyə salmışdı. Onu o qədər danışdırmışdı ki, keçi insan kimi dil bilirdi. O arvadın körpəyə dediklərini başa düşdü. Bu sözləri eşidəndə ot yeməyini dayandırdı. Balaca qara gözlərini qaldırıb arvada, onun kinli gözlərinə baxdı. Sahibəsi yadına düşdü. Gözlərindən yaş töküldü. Umnisə arvad keçinin ağlamağını görmədi. Amma öz-özlüyündə keçini də ac saxlamaq istəyirdi ki, südü qurusun. Buna görə də, keçinin qabağından otları götürüb apardı. Keçi keçiliyi ilə bu işə məətəl qaldı. Pis arvad körpənin ağlamağına da fikir verməyib getdi.

Xallı keçi yavaş-yavaş onun ardınca getdi, gördü ki, arvad oturub şirin-şirin buğlanan aşdan görməmiş-görməmiş ötürür içəri. Keçinin arvaddan zəhləsi getdi. Körpə acından qışqırırdı, arvad isə elə bil kar idi, uşağın qışqırtısın vecinə almırdı.



Keçinin uşağa yazığı gəldi. Onun da balası həmişə ac olanda mələyir, belə yanıqlı səs çıxardırdı. Keçi bilmədi neyləsin. Bu onun sevimli sahibəsinin körpə ac balasıydı axı. Keçi gəlib yaxından çağanın üzünə baxdı. Körpə keçini görəndə səsini kəsdi qığıldamağa başladı. Sonra yenə də için-için ağlamağa başladı. Keçi sahibəsinin ac balasının ağlamağına dözmədi. Arxasını körpəyə tərəf çevirib dal ayaqlarını elə qoydu ki, əmcəkləri düz körpənin ağzına dəydi. Yavaş səslə mələdi. Ac körpə elə bil bunu gözləyirdi. Tez əmcəyi tutub sümürməyə başladı. Doyunca əməndən sonra əmcəyi buraxdı. Bir az qığıldanandan sonra şirin yuxuya getdi. Keçi onun üzünü yalayıb gəlib bir tərəfdə oturdu.

Körpənin səsi kəsilən kimi Umnisə arvad gəldi ki, görsün nə əcəb səs kəsildi? Bəlkə o acından öldü, deyə pis arvad fikirləşdi. Gəldi gördü ki, çağa şirin yuxuya gedib, dedi:

-Yat, yat, onsuz da çox keçməz, gəbərərsən!

Bu sözləri deyəndə keçi dözə bilmədi. Buynuzları ilə arvada bərkdən bir kəllə vurdu. Arvad arxası üstə dəydi yerə. Hirsindən-hikkəsindən elə qışqırdı ki, qonşular səsinə yığıldı. Hay-küyə Muxtar kişi də gəlib çıxdı. Soruşdu:

-Nə olub, arvad, niyə səsin aləmi götürüb?

Arvad ağlaya-ağlaya dedi:


-Mən belə keçi görməmişəm. Keçi it kimi quduzlaşıb. Adamın üstünə gəlir. Sən evdən çıxandan məni neçə dəfə vurub yıxıb yerə, hər yanım əzik-əzikdir. Rədd elə bunu getsin.

Muxtar kişi üçün də xallı keçi əziz idi. Amma arvadının da dediyini eləməliydi. Ona görə də aparıb keçini saldı tövləyə ağzını bağladı.

Gecə yarıdan keçmiş xallı keçi körpənin səsinə yuxudan oyandı. Tövlənin qapısına bir yoğun, möhkəm ağac keçirtmişdilər ki, qurd-zad aça bilməsin. Xallı keçi bilmədi neyləsin ki, körpənin yanına getsin. Başladı ağacı gəmirməyə. O qədər gəmirdi ki, ağac yeyildi, nazikləşdi. Buynuzu ilə bir dəfə ilişdirən kimi tövlənin qapısı açıldı. Tez körpə yatan evə girdi. Gördü ki, körpə ağlayır, arvad da başını yorğanla basdırıb yatıb. Muxtar kişi də yuxarı başdakı evdə yatmışdı deyə, arvadının işlərindən xəbərsiz idi.

Xallı keçi sakitcə gəldi görpənin yanına. Ayaqlarını körpənin baş tərəfinə elə qoydu ki, körpə onu rahatlıqla əmə bilsin. Körpə ləzzətlə süd əmməyə başladı.


Körpənin səsinin kəsilməyindən şübhələnən Umnisə arvad başını açdı. Keçini görəndə qorxdu. Bilmədi keçidir. Qaranlıqda onun buynuzlarını cin-şeytana oxşatdı. Durub çıraq yandırandan sonra gördü ki, körpə keçinin əmcəyini şirin-şirin əmir. Hirsindən bilmədi neyləsin. Gəldi keçinin buynuzlarından yapışdı, nə qədər elədisə də, gücü çatmadı ki, onu

körpədən ayırsın. Axırda gedib bayırdan yoğun bir ağac gətirdi. Başladı onunla keçinin belidən çırpmağa. Sahibəsinə etibarlı keçinin beli ağrısa da körpəni süddən ayırmadı. Yalnız körpə doyandan sonra, belindən qan axa-axa, ağrıdan ləngər vura-vura tövləyə getdi.
Körpə isə təzədən şirin-şirin yuxuladı.
Səhər tezdən Umnisə arvad hirsindən qap-qara idi. Muxtar kişi onu belə görəndə qorxdu, soruşdu:
-Nə olub sənə, ay arvad, azarlı-zad deyilsən?
Arvad qaş-qabaqlı dedi:
-Azarlamışam ay kişi, özü də yuxumu qatışdırmışam. Yuxuda görmüşəm ki, mənə həyətdəki xallı keçinin ətini dərman deyiblər. Özü də yuxuda mənə dedilər ki, əgər bu gün xallı keçini kəsib, həyətinizə qanın axıtmasaz, evdəkilərdən birinə azar gələcək.
-Arvad, yuxuya pis deməzlər, günahdır, doğrudan da sən çox pis yuxu görübsən. Xallı keçi qapımızın əziz heyvanıdır. Bizim uşağımızın olmayan vaxtında o bizim başımızı qatıb, darıxmağa qoymayıb. Mən o keçini kəssəm, rəhmətlik Gülsonanın qəbri od tutub yanar. O, bu keçiyə mehrini salmışdı. Onsuz dayana bilmirdi. Keçinin özü də lap adam kimi hər gün sahibəsinin qəbrinin üstünə gedir. O elə bil müqəddəs heyvandır. Onu kəsməyə mənim ürəyim gəlməz. Özü də körpəmiz ac qalar onu kəssək. Mən keçini kəsə bilmərəm, sən incimə.
Arvad ağlaya-ağlaya durub getdi işinə. Bir yol axatrmağa başladı. Beyninə bir fikir gəldi. Sevindi. Gedib haradansa neçə dənə qara bit gətirib saldı keçinin üstünə. Keçini pis qaşınmaq tutdu. Hər dəfə keçi qaşınanda ərinə göstərdi. İki gündən sonra isə ərinin yanında keçinin tüklərini araladı. Qara eybəcər bitləri ona göstərib dedi:
-Sənin sevimli keçin həyətlərdə pinti itlərlə oynaqlaşır, görürsən, itlərdən bit də keçib ona. Onu tez kəsməsən həm heyvanlara qara bit keçəcək, həm də onun bitinin toxumları bizim balamızın qarnına da keçəcək. Mənim yuxum düz çıxdı. Keçi bizə ziyan gətirməyə başlayıb. Onu tez kəsməsən, bədbəxtlik olacaq.
Muxtar kişi dedi:
-Arvad, bu qara bitlər küçə itlərində olur, mən ona dərman tapa bilərəm, gəl ondan ötəri bu əziz keçini kəsməyək!
Arvad hönkür çəkib ağladı:
-Bax, budu sənə deyirəm, onu bu gün kəsməsən, çıxıb gedəcəyəm dədəmin xarabasına.
Kişi naəlac xallı keçiyə baxıb ağladı:
-Mənim xallı keçim, mənim başqa yolum yoxdur, gərək səni kəsim.
Muxtar kişi getdi dəhrəsin itiləməyə ki, keçisini kəssin, arvad da sevincək durdu təndir qaladı ki, keçinin ətini sackababı eləsin.



Keçi sahibinin,- Muxtar kişinin etibarına yanıb-yaxıldı. Evə girib axırıncı dəfə Körpəni əmizdirdi. Gözlərindən qan-yaş tökdü. Gəldi durdu gözləri yaşlı sahibinin qabağında ki, bəlkə insafa gəldi. Gördü yox, sahibi insafa gələnə oxşamır. Baxdı Umnisə tərəfə. O da öz işində idi. Sevindiyindən təndiri möhkəm qalamışdı. Odunlar da yanıb qurtarmış, qıpqırmızı közə dönmüşdü. Keçi odu görəndə, onun da gözləri alovlandı. Hirsindən buynuzları yerində oynadı. Arvad sacı odun üstünə qoymaq üçün başı aşağı təndirə əyilmişdi. Keçi arxadan buynuzlarını uzadıb düz Umnisənin üstünə cumdu. Umnisə kəllə-mayallaq təndirə düşdü. Keçi də onun üstünə. Keçi alovun istisinə dözə bilməyib hoppanıb təndirdən çıxdı. Arvadın qışqırıq səsinə Muxtar kişi gəlib çıxınca onu təndirdən çıxartmaq mümkün olmadı. O qoyduğu sacın üstünə düşüb əməlli başlı sackababı oldu. Arvalı ordan çıxardana qədər sümükləri də yandı. Keçi isə onun üstünə düşmüşdü deyə, düşən kimi də hoppanıb qırağa çıxmışdı. Onun təkcə tükləri bir qarsalanmışdı, bir də bitləri yanmışdı. Keçi elə təzəcə təndirdən çıxmışdı ki, körpənin ağlamaq səsi gəldi. O, acmışdı. Keçi körpəni əmizdirmək üçün həmişəki kimi ayaqlarını aralayıb, əmcəyini körpənin ağzına tutdu. Əvvəlcə uşaq yemək istəmədi. Çünki keçidən ütülmüş tük iyi gəlirdi. Amma sonra ac olduğundan əlacı kəsildi, yedi.

Muxtar kişi gəlib onları belə görəndə keçini kəsmək fikrindən daşındı. Körpənin də canı pis arvaddan qurtardı, xallı keçinin də.

Nağılımız da burda qurtardı. Göydən üç qırmızı alma düşdü. Biri mənim, biri sənin, biri də nağılı danışan nənənin.

## Ayı ilə hiyləgər tülkünün nağılı
## (Nağıl)

Biri var idi, biri yox idi, bir ayı var idi. Qara, kobud bir ayı. Ayı bütün günü meşədə tək-tənha dolaşır, darıxırdı. Heyvan dostları ona məsləhət gördülər ki, evlənsin, ondan sonra darıxmayacaq.

Ayı özünə yaraşan birini tapa bilmirdi. Özü kimi ayı ilə də evlənmək fikri yox idi. Ona görə də başqa başqa tayfadan çox gözəl birisini axtarırdı.

Ceyranı bəyənmirdi ki, buynuzları xoşuna gəlmir, maralı bəyənmirdi ki, çox fağırdı, zürafəni bəyənmirdi ki, boynu çox uzundu, meymunu bəyənmirdi ki, çox çirkindi, pələngi bəyənmirdi ki, çox həyasızdı, şiri bəyənmirdi ki, yırtıcıdı, hərədə bir eyib görürdü.

Bir dəfə Ayı meşədə gəzəndə rastına ağ tülkü çıxdı. Tülkü həqiqətən də çox gözəl idi. Ağappaq qar kimi tükü, şəvə quyruğu, iri badamı gözləri ayını heyran elədi. Ayı tülküyə dedi:

-Gözəllər gözəli, səni gördüm, heyran oldum. Səndən gözəli yoxdur. De görüm, səni özümə yar seçsəm razı olarsanmıi?

Tülkü hiyləgərcəsinə gülümsəyib nazlandı, pəncəsi ilə ayını yavaşca vurdu:

- Çəkil yolumdan, ayının biri ayı! Kobudsan. Sənnən mənimki tutmaz!

Bunu deyib tülkü qaçıb girdi yuvasına.



Bundan sonra ayı hər gün gəlib tülkünün yuvası qarşısında dayanır, heç olmasa bircə dəfə də olsun tülkünü görmək üçün saatlarla yuvanın həndəvərində gəzişirdi. Tülkü isə yuvanın oyuğundan boylanır, ayını yaxınlıqda görəndə badamı gözlərini süzdürüb, başını içəri çəkirdi.

Bir gün belə, beş gün belə ayı tülkünün həsrətinə dözə bilməyib ona elçi göndərdi. Meşə adətini pozub özü də elçilərə qoşulub gəldi.

Tülkünün atası ayının onun qızına elçi düşməyinə sevincini gizlətmədi:

-Bizim üçün çox böyük şərəfdir ki, ayı kimi mötəbər, güclü bir adam bizim qızımıza elçi gəlib. Qızın anası da bu işə razıdır. Amma gərək qızımızla danışaq. Qızım, Ayıya getməyə razısan?

Qız əsəbi halda dilləndi:

-Ayılar çox kobud olurlar. Mən isə çox incəyəm. Xətrimə dəysə dözə bilmərəm. Özü də bilmirəm, onun yuvası var, yoxsa yox? Mən bu görkəmimlə meşədə yuvasız qala bilmərəm. Ağappaq tüklərim korlanar. Həm də mən bilmirəm, ayı yemək tapa bilir, yoxsa yox? Bəlkə məni ac saxlayacaq? Bütün bunlar mənim üçün əsasdır.

Burda ayı ayağa qalxdı:

- Heç mən qıyaram sən yuvasız qalasan? Bizim böyük mağaramız var, - o qara, tüklü pəncəsi ilə ata-anasını göstərdi, - biz bir yerdə qalacağıq. Yeməyə

də hər şeyimiz var. Çəlləklərdə balımız, armudla dolu səbətlərimiz var, özü də nə istəsən taparam sənin üçün, təki sən razılıq ver!

Tülkü hökmlü səslə danışmağa başladı:

- Ata-ananın yanında deyirəm, mən mağarada tək yaşamalıyam. Səndən başqa mən heç kəslə bir yerdə qala bilmərəm. Bir də mən təkcə bal, armudla keçinə bilmərəm, toyuq olmasa acından ölərəm. Gündə üç kərə də mənə toyuq tapmalısan. Şərtlərimə razısansa, «hə» deyirəm.

Hamı bir-birinin üzünə baxdı. Tülkü ayının doğrudan da ağlını başından çıxartmışdı. Ayı heç nə düşünmədən, yazıq-yazıq ata-anasına baxıb dedi:

- Təki sən razı olasan, nə şərt desən razıyam. Dur gedək yuvamıza!

- Nə deyirəm, gedək deyirsən, gedək!

Bunu deyib tülkü işvə ilə ayağa durdu. Nazlana-nazlana ayının qoluna girib yola düzəldi.

Elə təzəcə yuvadan çıxmışdılar ki, meşədə leysan yağış başladı. Onlar canlarını yağışdan qurtarmiaq üçün özlərini güclə mağaraya çatdırdılar. Mağaraya çatana qədər hamı islanmışdı.

Mağaraya girəndə hər üçü, ata-ana və ayının özü tülküyə baxanda gölərinə inanmadılar. Tülkünün rəngi bomboz olmuşdu. Onun tükləri seyrək, həm də cod idi. Gözləri balacalaşmış, və alabəzək olmuşdu. Ayı bunun səbəbini soruşdu:

-Tülkü, sənə nə oldu? Niyə bu hala düşdün? Rəngin niyə bozardı? Gözlərin nədən soldu, saraldı? Gözəlliyin harda qaldı?

Tülkü qəhqəhə ilə güldü:

-Yağış rəngimi apardı, gözlərimin qarasını da. Üstümə saldığım keçi dərisi də meşədə kola ilişib qaldı. Get dərini axtar tap, sonra gözəlliyim də qayıdar. Sən şərtinə əməl elə, ata-anana «çıx get», söylə!

Ayı yağışla gedib keçi dərisini tapıb gətirdi. Tülkü dərini üstünə saldı. Sonra isə çantasından çoxlu un çıxardıb üz-gözünə yaxdı. Kömür tapıb qaş-gözünə çəkdi. Oldu yenə də gözəllər gözəli.

Ayı buna mat qaldı. Amma daha əvvəlki kimi tülküyə heyran olmadı. Yalançı gözəli ürəyindən çıxartdı. Ağlı başına gəldi.

Tülkünü aparıb gətirdiyi yerə də qoydu. «Mənə yalançı gözəl lazım deyil!» - dedi. Sonra isə özü kimi boz bir ayı ilə evləndi.

Onlar xoşbəxt yaşadılar, biz də xoşbəxt olaq! Yaxşını pisdən, yalanı gerçəkdən ayırmağı bacaraq!